HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 15 (806) ▪ 20 aprel 2016 www.vergiler.az Qiyməti: 55 qəp.


# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri

*Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitində iştirak etmək üçün Türkiyə Respublikasına işgüzar səfər ediblər. İstanbulun Atatürk Beynəlxalq hava limanında dövlətimizin başçısını və xanımını Türkiyənin yüksək səviyyəli rəsmi nümayəndələri qarşılayıblar.*

Həmin gün İstanbulda Prezident İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın görüşü olub. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafı, strateji əməkdaşlığın bundan sonra da bütün sahələrdə genişlənəcəyinə əminlik ifadə olunub. Söhbət zamanı Dağlıq Qarabağda cəbhə xəttində baş verən son hadisələr və hazırkı vəziyyət müzakirə edilib.

Aprelin 14-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) XIII Sammiti işə başlayıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyev də daxil olmaqla digər dövlət və hökumət başçılarını qarşılayıb. İƏT-in qurucularından olan Türkiyənin ev sahibliyi etdiyi «Ədalət və sülh üçün birlik və həmrəylik» devizi altında keçirilən XIII Sammit müqəddəs «Qurani-Kərim»dən ayələrin oxunması ilə başlayıb. İslam Əməkdaşlıq Təşkilatının XII Sammitinə sədrlik edən Misirin xarici işlər naziri Sameh Şukri çıxışında müsəlmanların və İslam ölkələrinin maraqlarının qorunması baxımından İƏT-in fəaliyyətini yüksək qiymətləndirib. Son aylarda bölgədə silahlı münaqişələrin, terror hadisələrinin daha da şiddətləndiyini vurğulayaq, bunun ciddi bir təhdid olduğunu bildirib. O, İslam dünyasında mövcud problemlərin, o cümlədən Fələstin məsələsinin, Suriya böhranının, həmçinin son illər artmaqda olan islamofobiyanın və digər problemlərin həlli üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulayıb.

İslam Əməkdaşlıq Təşkilatının baş katibi İyad bin Amin Mədəni Sammitə yüksək səviyyədə ev sahibliyinə, eləcə də dünyada İslam ölkələrinin mənafeyini fəal müdafiə etdiyinə görə Türkiyəyə minnətdarlığını bildirib. İƏT-in baş katibi çıxışı zamanı təcavüzkar Ermənistanın Azərbaycana qarşı davam etdirdiyi işğalçılıq siyasətini pisləyib, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr əsasında həll edilməli olduğunu, problemin həllində təmsil etdiyi qurumun ədalətli və qətiyyətli mövqe nümayiş etdirəcəyini diqqətə çatdırıb.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan nitq söyləyərək Sammitin əsas mövzusu olan prinsiplərin dünyada baş verən böhranların, xüsusən də İslam aləmində yaşanan gərginliklərin həll edilməsi baxımından qısa zamanda bərqərar olunmasının əhəmiyyətini vurğulayıb. O, bu problemlərin əsas səbəbinin dünyada irqçilik, məzhəbçilik, etnik və dini ayrı-




seçkiliyin olduğunu qeyd edərək münaqişələr, böhranlar nəticəsində milyonlarla insanın əziyyət çəkdiyini bildirib. «Dünyada yaşanan problemlərdən, münaqişələrdən, böhranlardan daha çox əziyyət çəkən sadəcə İslam dünyası və müsəlman ölkələridir», - deyən Rəcəb Tayyib Ərdoğan bu Sammitin müsəlman ölkələrinin səylərini birləşdirməsi, əməkdaşlığı inkişaf etdirməsi yolunda dönüş nöqtəsi olacağına əminliyini qeyd edib. Son illərdə Türkiyədə baş verən terror hadisələrinə diqqət çəkən Prezident Rəcəb Tayyib Ərdoğan bəzi Qərb ölkələrinin terror təşkilatlarına və onların qanlı aksiyalarına ikili standartlarla yanaşdığını, Parisdə, Brüsseldə baş verən terror hadisələri anıldığı halda, Ankara, İstanbul və Lahorda baş verənlərin yad olunmadığını deyib. İslam ölkələrinin qarşıdakı dövrdə sülh, inkişaf və təhlükəsizlik məsələlərinə daha çox diqqət göstərmələrinin əhəmiyyətini vurğulayan Türkiyə prezidenti qardaşlığı sadəcə sözdə yox, siyasi, iqtisadi, mədəniyyət və bir çox istiqamətlərdə qurulan əməkdaşlıqla da göstərməyin vacib olduğunu bildirib, gənclərin fəaliyyətinin təşkilatlanmasının, qadın hüquqlarının qorunmasının zəruriliyinə diqqət çəkib.

Tədbirdə Bəhreyn, Bruney, Küveyt, Qətər, Səudiyyə Ərəbistanı, Türkiyə, İran, Qazaxıstan, Pakistan, Fələstin, Əfqanıstan, İndoneziya, Malayziya, Banqladeş, İordaniya, Livan, Oman, Özbəkistan, Tacikistan, Qırğızıstan, Maldiv adaları, Birləşmiş Ərəb Əmirlikləri, Yəmən, Türkmənistan, Suriya, İraqın daxil olduğu Asiya qrupu adından çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin sədrliyinin İslam dünyasında davamlı inkişafa, tərəqqiyə və əmin-amanlığa əhəmiyyətli töhfə verəcəyinə inandığını və təşkilatın məqsədlərinə nail olmaq istiqamətində İslam Əməkdaşlıq Təşkilatının yeni sədri ilə əməkdaşlıq etməyə tam hazır olduqlarını qeyd edib.

Sammit işini sessiyalarla davam etdirib. Azərbaycan Prezidenti İlham Əliyev birinci sessiyada çıxış edib. Dövlətimizin başçısı Azərbaycanın İslam ölkələri ilə əməkdaşlığı prioritet hesab etdiyini, son illər ərzində Bakıda İƏT-ə üzv ölkələrin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirlərinin 10-a yaxın görüşünün keçirildiyini diqqətə çatdırıb. İƏT-in qarşılıqlı dəstək və həmrəylik yolunda fəaliyyətini yüksək qiymətləndirən Prezident İlham Əiyev bildirib ki, bu gün dünyada baş qaldıran islamofobiya ciddi təhlükədir: «Biz bu tendensiyanı qətiyyətlə pisləyirik. Əslində İslam sülh, mərhəmət, dözümlülük, ədalət dinidir. İslamı terrorla eyniləşdirmək isə səhv və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir».

Azərbaycanın dövlət başçısı bildirib ki, Ermənistan 20 ildən artıqdır ki, Azərbaycana qarşı işğalçılıq siyasəti aparır: «Bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal edilmiş, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan Xocalı soyqırımını törətmişdir. Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. Mən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyən ədalətli qətnamələrə görə İƏT-ə səmimi minnətdarlığımı bir daha ifadə edirəm. Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır. Onlardan biri də aprelin əvvəllərində törədilmişdir. Silahlı hücum nəticəsində Azərbaycan hərbçiləri və mülki şəxslər həlak olmuşlar. Azərbaycan Ordusu Ermənistanın təxribatının qarşısını aldı. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar İƏT qərar qəbul edib ki, xarici işlər nazirləri səviyyəsində kontakt qrupu yaradılsın».

Azərbaycan Prezidenti İlham Əliyev səfər çərçivəsində Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu ilə görüşüb. Görüşdə Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrinin yüksək səviyyədə olması bildirilib, ölkələrimiz arasında dostluq, qardaşlıq və tərəfdaşlıq münasibətlərindən məmnunluq ifadə edilib. Görüşdə son vaxtlar Dağlıq Qarabağda cəbhə bölgəsində baş verən hadisələrlə bağlı fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə də görüşüb. Görüşdə ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərin, əməkdaşlıq əlaqələrinin müxtəlif sahələrdə dinamik inkişaf edərək yüksək səviyyəyə qalxması məmnunluqla vurğulanıb, əməkdaşlıq əlaqələrinin daha da inkişafı üçün geniş imkanların olduğu qeyd edilib. Söhbət zamanı aprelin əvvəlində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş hadisələrlə bağlı geniş fikir mübadiləsi aparılıb. Prezident İlham Əliyev qeyd edib ki, biz müharibə istəmirik, ancaq Ermənistan hərbi birləşmələrinin təxribatçı əməllərinə cavab verməli olmuşuq. Dövlətimizin başçısı hadisələr zamanı telefonla zəng etdiyinə və narahatlığını ifadə etdiyinə görə İran Prezidentinə təşəkkürünü bildirib.

Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda BMT Baş katibinin siyasi məsələlər üzrə müavini Cefri Feltman ilə də görüşüb. Görüşdə Azərbaycanın BMT və onun qurumları ilə sıx əməkdaşlıq etdiyi bildirilib. Azərbaycanın BMT ilə birgə bu il Bakıda təşkil edəcəyi Sivilizasiyalar Alyansının VII Qlobal Forumu bu əməkdaşlığın yaxşı göstəricisi kimi səciyyələndirilib. Foruma hazırlıq prosesinin başa çatmaqda olduğu vurğulanıb, tədbirlə bağlı bir sıra təşkilati məsələlər müzakirə edilib. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı fikir mübadiləsi aparılıb. BMT-nin baş katibi Pan Gi Munun Bakıda bu münaqişənin həlli, habelə Ermənistanın təxribatçı əməllərinin qarşısının alınması ilə bağlı verəcəyi mesajın mühüm əhəmiyyət kəsb edəcəyi diqqətə çatdırılıb.

# Paytaxt sakinlərinin rahatlığının təmin olunması məqsədilə...



*Aprelin 18-də «BakuBus» MMC-nin ikinci deposunun açılışı olub.*

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə depoda yaradılan şərait barədə məlumat verilib. Bildirilib ki, Bakı metrosunun «Koroğlu» stansiyasının yaxınlığında yerləşən depoda 300 avtobusun eyni vaxtda park edilməsi mümkündür. Deponun inzibati binasındakı iclas zalı və digər otaqlar zəruri avadanlıqla təchiz edilib. Burada informasiya texnologiyaları və elektron xidmətlərin təşkili, insan resurslarını idarəetmə, marşrut xətlərinin planlaşdırılması, daxili nəzarət və digər şöbələr fəaliyyət göstərir. Binada işçilər üçün müasir yeməkxana da yaradılıb.

«BakuBus» MMC-nin ikinci deposu əhali sıxlığının, hərəkətin intensivliyinin artdığı hazırkı dövrdə bu sahədə əldə olunmuş müsbət nəticələrin səmərəliliyinin daha da yüksəldilməsi məqsədilə yaradılıb. Ümumi sahəsi 650 kvadratmetr olan yuma məntəqəsi müasir yuyucu avadanlıqla təchiz edilib. Deponun texniki təmir mərkəzi də müasir səviyyədə qurulub. Avtobuslara texniki baxış və təmir xidmətləri göstərmək üçün yaradılan mərkəzdə Almaniya və digər qabaqcıl ölkələrin istehsalı olan müxtəlif növ avadanlıq quraşdırılıb. Mərkəzdə eyni vaxtda 10 avtobusa xidmət göstərmək mümkündür.

*Aprelin 19-da Azərbaycan Prezidenti İlham Əliyev Bakı Metropoliteninin yeni xəttinin - «Avtovağzal» və «Memar Əcəmi» stansiyalarının açılışında iştirak edib.*



«Avtovağzal» stansiyası platformadan, 2 vestibüldən, 8 çıxışdan, havalandırma keçidindən, vestibüllərin üzərində quraşdırılmış iki piramidadan ibarətdir. Stansiya kompleksinin ümumi uzunluğu 560 metrə yaxındır. «Avtovağzal» və «Memar Əcəmi» stansiyalarının platformalarının uzunluğu 144 metrdir. Bu isə əvvəlki stansiyalarda olduğu kimi platformaya 5 deyil, 7 vaqonun daxil olmasına imkan yaradır. Stansiya və keçidlərdə müxtəlif hündürlüklü 20 eskalator, çıxışlarda isə 8 travelator qoyulub. «Memar Əcəmi» stansiya kompleksinin ümumi uzunluğu 168,5 metrdir. Burada üç çıxış yaradılıb. Ümumi sahəsi 12 min kvadratmetrə yaxın olan stansiyada və çıxışlarda 17 eskalator quraşdırılıb. Hər iki stansiyada fiziki imkanları məhdud insanlar üçün liftlər var. Stansiyaların inşası zamanı əsasən yerli xammaldan istifadə olunub.

Şəhər əhalisi üçün mühüm əhəmiyyət daşıyan metropolitenin genişləndirilməsi, yeni stansiyaların açılması istiqamətində işlər son illər ardıcıl olaraq həyata keçirilir ki, bu da metro nəqliyyatında keyfiyyətin yüksəldilməsi ilə nəticələnib.

# Proqnoz tapşırığı yerinə yetirilib

2016-cı ilin yanvar-mart ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 1 milyard 542 milyon 401,2 min manat vəsait daxil olub, proqnoz tapşırığına 101,4 faiz əməl edilib.

İlin ilk rübündə ölkədə 28 min 434 vergi ödəyicisi qeydiyyata alınıb.

# Vətəndaş müraciətlərinə diqqətlə yanaşılır

2016-cı ilin birinci rübü ərzində vergi orqanlarına 24.668 müraciət daxil olmuşdur. Onlardan 97,2%-i ərizə, 2,6%-i şikayət, 0,2%-i isə təklifdir.

Daxil olan müraciətlərin 54,4%-i müxtəlif arayışların alınması, 15,2%-i kameral vergi yoxlamaları, 8,3%-i vergi borcları, 2,1%-i səyyar vergi yoxlamaları, 1,8%-i vergidən yayınma və dividendlərin verilməsi, 1,8%-i vergi qanunvericiliyi, 1%-i operativ vergi nəzarəti (o cümlədən nağd hesablaşmaların aparılması qaydalarının pozulması), 0,5%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti və ya hərəkətsizliyi, 0,4%-i qanunsuz sahibkarlıq fəaliyyəti, 0,2%-i korrupsiya hüquqpozmaları, 14,3%-i digər məsələlərlə bağlıdır. Bütün müraciətlərə vaxtında baxılıb, onların 78,9%-i müsbət həll olunub.

Hesabat dövründə vergi orqanlarına daxil olmuş şikayətlərin sayı ötən ilin birinci rübü ilə müqayisədə 20,2%, dördüncü rübü ilə müqayisədə isə 41,4% azalıb.

Hesabat dövründə vergi orqanları tərəfindən ümumilikdə 848 vətəndaş qəbul edilərək, onlara mövcud qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın şəhər və rayonlarında vətəndaşların qəbulu qrafikinə əsasən, 2016-cı il fevralın 25-də vergilər naziri tərəfindən Oğuz rayonunda 37 vətəndaş qəbul edilib.

# Vergi Məcəlləsinə əlavə və dəyişikliklər müzakirə olunub

Ötən həftə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Vergi Məcəlləsində dəyişikliklər edilməsi barədə qanun layihəsini təqdim edən komitə sədri Ziyad Səmədzadə bildirib ki, təklif olunan layihədə bir sıra məhsulların idxal və satışının əlavə dəyər vergisindən (ƏDV) azad edilməsi nəzərdə tutulur. Belə ki, damazlıq heyvan idxalı və satışı, toxum və tinglərin idxalı və satışı, mineral gübrələrin, pestisidlərin idxalı, toxumların yetişdirilməsi, laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı, kənd təsərrüfatı heyvanlarının və quşlarının profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı, bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların idxalı və satışının ƏDV-dən azad olunması təklif edilib.



Diqqətə çatdırılıb ki, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi əvvələ kənd təsərrüfatı məhsullarının istehsalını stimullaşdırmaq üçün Məcəllənin 164-cü maddəsində kənd təsərrüfatı məhsullarının istehsalında istifadə edilən malların idxalının və ölkə daxilində satışının (16.1.33-cü bənd üzrə yalnız idxal zamanı) ƏDV-dən azad edilməsini nəzərdə tutur. Bu da yerli istehsalın maya dəyərini aşağı salmaqla, bu sahə üzrə rəqabətədavamlı ixrac məhsullarının istehsalının artırılması məqsədilə hazırlanıb. Məcəllənin XIV fəslində (Torpaq vergisi) nəzərdə tutulan dəyişikliklər kənd təsərrüfatı təyinatlı və bu məqsədlərlə istifadə üçün yararlı olan, lakin istifadəsiz qalmış torpaq sahələri üzrə vergi yükünün artırılması məqsədini daşıyır. Bu, mülkiyyətçilər tərəfindən belə torpaqlardan geniş istifadə edilməsinə və bununla da qeyri-neft sektorunun əsas istiqamətlərindən biri olan kənd təsərrüfatı istehsalının genişləndirilməsinə zəmin yaradacaq.

Məcəlləyə edilən dəyişikliklərin digər məqsədi isə kənd təsərrüfatının inkişafı, bu sahədə investisiya qoyuluşları üçün əlverişli imkanların yaradılması, biznes mühitinin daha da yaxşılaşdırılması, qeyri-neft ixrac potensialının artırılması, qeyri-neft sektorunun inkişafı baxımından kənd təsərrüfatı məhsullarının istehsalının əsaslı şəkildə genişləndirilməsi, idxalın əvəzlənməsi, yerli sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və bu sahədə məşğulluğun artırılmasından ibarətdir.

Məcəlləyə təklif edilən daha bir dəyişiklik kənd təsərrüfatı təyinatlı torpaqların hər hansı üzrlü səbəb olmadan təyinatı üzrə istifadə edilmədikdə ona tətbiq edilən vergi dərəcəsi ilə bağlıdır. Layihəyə əsasən, həmin torpaq üzrlü səbəb olmadan təyinatı üzrə istifadə olunmursa, vergi dərəcəsi artırılaraq hər 100 kvadratmetr üçün 10 manat müəyyən edilir. Təyinatı üzrə istifadə edildikdə torpaq vergisi yerli büdcələrə, təyinatı üzrə istifadə olunmadıqda toplanan vergi isə dövlət büdcəsinə daxil ediləcək.

Müzakirələrdən sonra qanun layihəsi plenar iclasa tövsiyə olunub.

# Vergi tənzimlənməsi iqtisadi inkişafı stimullaşdırır

Vergi tənzimlənməsinin mahiyyəti təkrar istehsal proseslərinə müdaxilələrin iqtisadi baxımdan məqsədyönlü və əsaslandırılmış olmasıdır. Müxtəlif dövlətlərdə tənzimləmədə vergi ödənişinin təxirə salınması, vergi tətili, vergi investisiya krediti, vergi amnistiyası, vergi dərəcələrinin seçilməsi və təyini, vergi bazasının azalması, beynəlxalq iqtisadi münasibətlərdə ikiqat vergitutmanın aradan qaldırılması və s. kimi metodlardan istifadə olunur.

**Vergi dərəcəsi vergi bazası ilə birlikdə təsərrüfat subyektinin büdcəyə ödəyəcəyi məbləği müəyyən edən əsas amildir**

İqtisad üzrə fəlsəfə doktoru Pərviz Rzayev mövzunu şərh edərkən demişdir ki, vergi dərəcəsinin seçilməsi və təyinində vergi tənzimlənməsi xüsusi diqqət tələb edən metoddur. Vergi dərəcəsi vergi bazası ilə birlikdə təsərrüfat subyektinin büdcəyə ödəyəcəyi məbləği müəyyən edən əsas amildir. Onun optimal səviyyəsi elə olmalıdır ki, həm təsərrüfat subyektlərinin maliyyə dayanıqlığının, ödəmə qabiliyyətinin və mənfəətliliyinin, həm də dövlətin fiskal maraqlarının təmin edilməsinə şərait yaratsın. Vergi tənzimlənməsinin məqsədi dövlətin büdcəvergi sahəsindəki maraqları ilə bərabər, vergi ödəyicilərinin də maraqlarının təmin olunması və ölkədə ümumi rifahın yüksəldilməsi üçün zəruri şəraitin yaradılmasıdır.

Respublikamızın bölgələrində sosial-iqtisadi problemlərin həlli istiqamətində əhəmiyyətli tədbirlərin həyata keçirilməsi regional inkişafda uğurlu nəticələrin reallaşmasına səbəb olmuşdur. Kənd təsərrüfatı məhsulları istehsalçıları vergidən azad edilmiş, Bakı şəhəri istisna olmaqla regionlar üzrə sadələşdirilmiş sistem üzrə 2% vergi dərəcəsi müəyyən edilmişdir. İdxal olunan bir sıra mal və avadanlıqların ƏDV və gömrük rüsumundan azad olunması qeyri-neft sektorunun inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsinə, eyni zamanda müəssisələrdə dövriyyə vəsaitinə qənaət olunmaqla texnoloji yönümlü investisiyaların təşviq edilməsinə, rəqabətədavamlı məhsul istehsalına keçməyə, regionlarda formalaşmış kənd təsərrüfatı məhsulları emalı və istehsalını stimullaşdırmaqla bölgələrin inkişafına, qeyri-neft sektorunda ixracın genişlənməsinə əlverişli şərait yaratmışdır.

Beynəlxalq təcrübə göstərir ki, vergi ödəyicisindən tutulan vergilər onun məcmu gəlirinin 30-40 faizindən çox olduqda iqtisadi fəallığın səviyyəsi aşağı düşür, ölkəyə qoyulan investisiyaların həcmi azalır. Son illər Azərbaycanda vergi yükünün səviyyəsinə diqqət yetirsək, bu göstəricinin 20 faiz həddini ötmədiyini görərik. Rayonlarda mövcud imkanlardan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafında, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsində, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasında, yerli sahibkarlığın inkişafında vergi tənzimlənməsi mühüm rol oynayır.

Azərbaycan sahibkarları mütəmadi olaraq Vergilər Nazirliyinə müraciət edərək onları maraqlandıran sualların cavabını axtarır, bəzi vergi növləri üzrə dəyişikliklərin edilməsini təklif edirlər. Nazirlikdən bildirilmişdir ki, sahibkarlardan gələn təkliflərə diqqətlə yanaşır və həmin təkliflərin bir hissəsinin mövcud qanunvericiliyin təkmilləşdirilməsi prosesində istifadə olunacağı nəzərdə tutulur.

**Fəxriyyə İKRAMQIZI**

# Vergi borcları vaxtında ödənilməlidir

## *Vergi qanunvericiliyinin pozulması, ilk növbədə, vergi ödəyicilərinin özlərinə ziyan vurur*

**Gəlir əldə edən hər bir şəxs qanunvericiliyə uyğun qaydada dövlət büdcəsinə vergi ödəməlidir. Vergi ödəyiciləri vergilərlə bağlı hansı vəzifələrə malik olduqlarını və bunun məsuliyyətini dərindən başa düşməli və birmənalı olaraq qəbul etməlidir ki, vergi qanunvericiliyinə əməl olunmaması, ilk növbədə, vergi ödəyicilərinin özlərinin mənafeyinə ziddir. Çünki vergi qanunvericiliyinin pozulması vergi borcunun yaranmasına gətirib çıxarır, vergi borclarını vaxtında ödəməyənlər isə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunurlar.**

Cinayət Məcəlləsinə əsasən, xeyli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmış şəxslər 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə min manatdan iki min manatadək cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Bu əməl mütəşəkkil dəstə tərəfindən törədildikdə və ya onlar külli miqdarda (50000 manatdan yuxarı məbləğ) vergini büdcədən yayındırdıqda isə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə və ya üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar.

Qanunvericilikdən irəli gələn tələblərdən də göründüyü kimi, vergi öhdəliklərinin icrasından yayınmaq, vergi borcuna etinasız yanaşmaq sərt cəza tədbirlərinin tətbiqini nəzərdə tutur. Bu, dünyanın inkişaf etmiş ölkələrində də belədir və bir çox dövlətlərdə daha sərt cəzalar tətbiq olunur. Xüsusən, vergi ödəyicisinin əmlakına (vəsaitlərinə) həbs qoyulması təhlükəsi dünyada vergi intizamının yüksək səviyyədə saxlanmasının ən güclü mexanizmi hesab olunur.

Bəzən məlumatsızlıqdan, bəzən isə məsuliyyətsizlikdən yaranan problemlərin olmaması üçün Vergilər Nazirliyi bütün zəruri tədbirləri həyata keçirir. Vergi ödəyicilərinin işini asanlaşdıran tədbirlərdən biri maarifləndirmə və məlumatlandırmadır. Artıq vergi ödəyiciləri vergi borclarının yaranma səbəbləri, borcun məbləği, ödənilmə qaydaları haqqında daha asan yollarla məlumat almaq imkanlarına malikdirlər.

Birinci və daha asan metod «195» Çağrı Mərkəzinə zəng edib «1» düyməsini sıxmaqla Vergilər Nazirliyinə qoşulduqdan sonra «3» düyməsinin seçilməsi və daha sonra VÖEN-i daxil edib «#» düyməsini sıxmaqla həmin tarixə vergi borcu barədə məlumat əldə etməkdir.

İkinci metod İnternet Vergi İdarəsinə daxil olmaqla vergi ödəyicisi ona məxsus istifadəçi kodu, parol, şifrə və ya gücləndirilmiş elektron imzadan istifadə etməklə «İnternet Vergi İdarəsi»nin «E-bəyannamə, ƏDV-DH və ŞHV» (https://login.e-taxes.gov.az/login/) bölməsinə daxil olur, sonra «Məlumat axtar» altbölməsindəki «Şəxsi hesab vərəqəsi»nə daxil olmaqla öz öhdəliyi və vergi borcu ilə bağlı məlumatları əldə edə bilər.

Üçüncü metod Vergilər Nazirliyinin təqdim etdiyi «İkitərəfli SMS xidməti»nə (www.taxes.gov.az/195sms) qoşularaq (abunə olmaqla) 21, xidmətdən sorğu vasitəsilə (SMS göndərməklə) 5 istiqamət üzrə vergi öhdəlikləri barədə məlumatların əldə edilməsidir. Xidmətdən istifadə etmək üçün mobil operatorlara məxsus telefon nömrəsindən *195*istifadəçi kodu*şifrə#yes (məsələn: *195*00000541*121756#yes) yığmaqla qeydiyyatdan keçmək tələb olunur.

Xidmətə abunə olduqdan sonra qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə START yazıb SMS göndərməklə 21 sayda vergi öhdəlikləri barədə məlumatı SMS vasitəsilə almaq mümkündür.

Xidmətə abunə olmadıqda isə qeydiyyatdan keçirilmiş nömrədən 8195 nömrəsinə müvafiq rəqəmləri yazıb SMS göndərməklə (1 - dövlət büdcəsinə olan vergi borcu, 2 - təqdim edilməli bəyannamələr, 3 - fəaliyyətinin aktiv və ya dayandırılmış olması, 4 - elektron qutuda oxunmamış məktubların olub-olmaması və 5 - qeydiyyatda olan təsərrüfat subyektləri barədə) məlumat almaq mümkündür.

**Rəşad SADIQOV**

# Azərbaycanda biznes imkanları araşdırılır

Avropa İttifaqının «Şərq tərəfdaşlığı» layihəsi çərçivəsində may ayının 18-də ADA Universitetində «İkinci Avropa İttifaqı-Azərbaycan biznes sammiti» keçiriləcək. Azərbaycan Ticarət Palatasından verilən məlumata görə, tədbir Avropa və Azərbaycan müəssisələrinin ölkəmizdə biznes imkanlarının araşdırılması və işgüzar tərəfdaşlıq əlaqələrinin yaradılması məqsədilə təşkil olunacaq.

Biznes sammiti çərçivəsində kənd təsərrüfatı və qida sektorunda, nəqliyyat və logistika, turizm sektoru, eləcə də Azərbaycanda biznes imkanları üzrə ən son inkişaf səviyyəsi haqqında geniş müzakirələrin aparılması, sonra isə Avropa İttifaqı və Azərbaycan şirkətləri arasında ikitərəfli görüşlər nəzərdə tutulub.

Xatırladaq ki, ilk belə tədbir 2013-cü ildə keçirilmişdi və tədbirdə 12 ölkədən 200-dən artıq yerli və xarici şirkət iştirak etmişdi.

**AYTƏN**

## Mart ayında vergi ödəyicilərinə göstərilmiş xidmətlər



# Vergi orqanlarına daxil olan şikayətlərin sayı azalır

## Vergi qanunvericiliyinin pozulması, ilk növbədə, vergi ödəyicilərinin özlərinə ziyan vurur



***- Əli müəllim, Azərbaycanda vətəndaş müraciətlərinə baxılmasına dövlət səviyyəsində böyük önəm verildiyi hazırkı şəraitdə Vergilər Nazirliyi bu istiqamətdə hansı işləri görür?***

- Azərbaycan Respublikası Konstitusiyasının 57-ci maddəsində vətəndaşların dövlət orqanlarına müraciət etmək hüququ təsbit olunub. Həmin maddəyə əsasən, hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə baxılmalı və ərizəçiyə yazılı cavab verilməlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında vətəndaş fəallığının artırılmasını, rast gəlinən qanun pozuntuları barədə dərhal aidiyyəti üzrə məlumat verilməsini, ictimai nəzarətin gücləndirilməsini, vətəndaş müraciətlərinə operativ və ədalətli baxılmasını dövlət orqanlarının ən vacib vəzifələrindən olduğunu dəfələrlə vurğulayıb.

Vergilər Nazirliyində də bu məsələ həmişə diqqət mərkəzində saxlanılır. Vergilər naziri cənab Fazil Məmmədov vergi orqanlarında vətəndaş müraciətlərinə baxılmasının dövlət büdcəsinə vergi daxilolmalarının təmin olunması qədər əhəmiyyətli olduğunu bildirib. Nazirlikdə həyata keçirilmiş tədbirlər nəticəsində hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılır, müraciətlər diqqətlə və hərtərəfli araşdırılır, vətəndaşların və vergi ödəyicilərinin qanuni tələblərinin həlli üçün konkret tədbirlər görülür, qaldırılan məsələlərlə bağlı müvafiq izahatlar verilir. Vergi orqanlarında vətəndaş müraciətlərinə baxılmasının vəziyyəti barədə vergilər nazirinə ayda bir dəfə xidməti məruzə təqdim olunur.

Vergi ödəyicilərinin, habelə əhalinin vergi qanunvericiliyi və onun tətbiqi, Vergilər Nazirliyinin təqdim etdiyi elektron xidmətlər barədə operativ, düzgün, vergi orqanlarına gəlmədən məlumat almalarını, habelə vergi qanunvericiliyinin pozulması halları barədə müraciətlərin qəbulunu təmin etmək məqsədilə nazirliyin 2003-cü ilin sonundan Bakı şəhərini, 2006-cı ilin may ayından etibarən respublikanın bütün regionlarını əhatə edən «195» Çağrı Mərkəzi fəaliyyət göstərir. Mərkəzə daxil olmuş 2015-ci ildə 198.306, 2016-cı ilin birinci rübündə isə 66.225 müraciət cavablandırılmışdır.

Vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, onların təkrar şikayətlərinə (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş qaydada baxılması, habelə məhkəməyə qədər sadələşdirilmiş prosedurlara əməl olunmaqla mübahisələrin obyektiv həll edilməsi məqsədilə səkkiz il əvvəl Vergilər Nazirliyində Vergi Apelyasiya Şurası yaradılmışdır. Vergi ödəyiciləri vergi orqanlarının qəbul etdiyi inzibati aktlarla bağlı verdikləri ərizə və ya şikayətlərin (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) nəticələri ilə bağlı Vergilər Nazirliyi Aparatının struktur vahidləri tərəfindən qəbul olunmuş inzibati qərarlardan narazı qaldıqda Şuraya təkrar şikayətlə müraciət edə bilərlər.

2010-cu ildən Vergilər Nazirliyində «Onlayn kargüzarlıq» sistemi tətbiq olunur, ölkə vətəndaşları artıq bütün müraciətlərini vergi orqanına kompüter və ya mobil telefon vasitəsilə internet üzərindən göndərə bilirlər. Müraciət edən vətəndaş bu sistem üzərindən vergi orqanına göndərdiyi məktubların vergi orqanı daxilində hərəkətini onlayn rejimdə izləyə və icraçı ilə birbaşa telefon əlaqəsi yarada bilir. 2011-ci ilin oktyabr ayından vergi ödəyicilərinin videoqəbulu üçün də imkan yaradılıb.

Vergilər Nazirliyində vətəndaş müraciətlərinə baxılması ilə əlaqədar bütün dövlət vergi orqanlarında ən son texnoloji avadanlıqlarla təchiz edilmiş xüsusi qəbul otaqları yaradılıb. Vətəndaşlar tərəfindən vergi orqanlarına müraciət sahəsində şəffaflığın daha da artırılması məqsədilə nazirliyin rəsmi internet səhifəsində (www.taxes.gov.az və www.vergilər.az) «Vergilər nazirinə onlayn müraciət», «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi», «Vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə məlumatın onlayn verilməsi», «Vergi Apelyasiya Şurasına müraciətin onlayn təqdim edilməsi» imkanları yaradılıb.

***- Vergi ödəyiciləri öz ərizə, təklif və şikayətlərini vergi ödəyicilərinə xidmət mərkəzləri vasitəsilə vergi orqanlarına təqdim edə bilirlərmi?***

- Hazırda ölkəmizdə 56, o cümlədən Bakı şəhərində 6 xidmət mərkəzi fəaliyyət göstərir. Müraciət edənlərə burada vergi qanunvericiliyi və onun tətbiqi barədə məlumat və izahatlar verilir, qüvvədə olan vergilər, onların hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri, vergi qanunvericiliyinin tətbiqi məsələləri, vergi bəyannamələrinin təqdim olunma müddətləri, vergi güzəştlərindən istifadə edilməsi, vergi borcu haqqında ətraflı məlumatlar verilir, vergi ödəyicilərinə hazırda mövcud olan bütün vergi xidmətləri göstərilir. 2015-ci ildə xidmət mərkəzlərində 389 mindən çox, 2016-cı ilin birinci rübündə isə 123 mindən artıq vətəndaş qəbul edilib.

2013-2016-cı illərdə vergilər naziri ölkənin bütün ərazisini əhatə edən müxtəlif şəhər və rayonlarda 1149 vətəndaşı qəbul edib.

***- Vətəndaşlar daha çox hansı məsələlərlə bağlı vergi orqanlarına müraciət edirlər?***

- 2016-cı ilin birinci rübündə vergi orqanlarına 24.668 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2308 müraciət və ya 10,3% çox, ötən ilin dördüncü rübü ilə müqayisədə isə 15,7% azdır.

Daxil olmuş müraciətlərin 97,2%-i ərizə, 2,6%-i şikayət, 0,2%-i təklif olub, 243 sənədin icrası xüsusi nəzarətə götürülüb. Müraciətlərin 54,4%-i müxtəlif arayışların alınması, 15,2%-i kameral vergi yoxlamaları, 8,3%-i vergi borcları, 2,1%-i səyyar vergi yoxlamaları, 1,8%-i vergidən yayınma və dividendlərin verilməsi, 1,8%-i vergi qanunvericiliyi, 1%-i operativ vergi nəzarəti (o cümlədən nağd hesablaşmaların aparılması qaydalarının pozulması), 0,5%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (və ya hərəkətsizliyi), 0,4%-i qanunsuz sahibkarlıq fəaliyyəti, 0,2%-i korrupsiya hüquqpozmaları, 14,3%-i digər məsələlərlə bağlı olub.

Baxılmış müraciətlərdən 78,9%-i müsbət həll olunub, 13,8%-i barədə müvafiq izahatlar verilib, 2,1%-i əsassız sayılıb, 0,2%-i qismən həll edilib, 0,7%-i aidiyyəti üzrə göndərilib, 4,2%-i isə icradadır.

Statistikadan da göründüyü kimi, vətəndaşlardan daxil olan müraciətlərin böyük bir hissəsi müxtəlif arayışların və məlumatların alınması ilə bağlıdır. Müraciətlərin sayındakı artıma vətəndaşların vergi orqanlarına etimadının yüksəlməsi kimi də baxmaq olar. Çünki müraciətinə müsbət cavab almış vətəndaş növbəti dəfə hansısa bir problemlə üzləşdikdə, yenə də həmin orqana müraciət ünvanlayır, başqalarına da bu cür hərəkət etməyi tövsiyə edir.

Onu da qeyd etmək lazımdır ki, son illər vətəndaş müraciətlərinə baxılmasının daim diqqət mərkəzində saxlanılması və bu sahədə görülmüş ciddi nəzarət tədbirləri nəticəsində 2015-ci il və 2016-cı ilin birinci rübü ərzində vergi orqanlarına daxil olan bütün müraciətlər vaxtında icra edilib, gecikmə hallarına yol verilməyib.

***- Vergilər Nazirliyinə daxil olan şikayətlər vətəndaşları daha çox hansı məsələlərin narahat etdiyini göstərir?***

- Sahibkarların qarşılaşdıqları problemlərin öyrənilməsi baxımından ən aktual və dəqiq məlumatlar da məhz vətəndaş müraciətlərinin araşdırılması zamanı üzə çıxır. Vətəndaş müraciətləri bir növ dövlət-vətəndaş münasibətinin barometri rolunu da oynayır. Digər tərəfdən, vətəndaş müraciətlərinə baxılmasının daim nəzarətdə saxlanılması, eləcə də ötən il cənab Prezident tərəfindən sahibkarlıq sahəsində aparılan yoxlamaların 2 il müddətinə dayandırılması, habelə Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamalarının və operativ nəzarət tədbirlərinin (əmək müqavilələrinin bağlanmasına və aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması istisna olmaqla) keçirilməsinin dayandırılması vergi orqanlarına daxil olan şikayətlərin sayının azalması ilə nəticələnib.

2016-cı ilin birinci rübü ərzində vergi orqanlarına cəmi 387 faktiki şikayət daxil olub ki, bu da ötən ilin birinci rübü ilə müqayisədə 20,2%, ötən ilin dördüncü rübü ilə müqayisədə isə 273 ədəd və ya 41,4% azdır.

Şikayətlərin 31,3%-i səyyar vergi yoxlamaları, 29,7%-i kameral vergi yoxlamaları, 18,1%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 8%-i operativ vergi nəzarəti, 6,2%-i korrupsiya hüquqpozmaları, 6,7%-i digər məsələlərlə bağlı olub.

***- Bu günlərdə yeni redaksiyada təsdiq olunmuş «Dövlət vergi orqanlarında kargüzarlığın aparılması Qaydaları»na hansı dəyişikliklər edilib?***

- Dövlət vergi orqanlarının öz funksiyalarını yerinə yetirməsi prosesində kargüzarlığın aparılması xüsusi diqqət tələb edən məsələlərdəndir. Nəzərə alsaq ki, 2015-ci ildə dövlət vergi orqanlarında sənəd dövriyyəsi 6,4 milyondan çox olub, kargüzarlığın vahid sisteminin, sənədlərlə işin, onların hazırlanmasının, rəsmiləşdirilməsinin, uçotunun, hərəkətinin, icra mexanizminin və arxivə təhvil verilməsi qaydalarının təkmilləşdirilməsinin nə qədər mühüm əhəmiyyət daşıdığını aydın görmək olar.

2006-cı ilin fevral ayının 1-dən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiq olunması nəticəsində dövlət vergi orqanlarında kargüzarlığın aparılmasında ciddi keyfiyyət dəyişiklikləri baş verib, sənədlərin icrası, vətəndaş müraciətlərinə baxılması proseslərini əvvəldən axıradək izləməyə imkan verən dəqiq və kifayət qədər təkmil nəzarət sistemi yaradılıb.

Vergilər nazirinin 18 mart 2016-cı il tarixli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarında kargüzarlığın aparılması Qaydaları»nda sənədlərin hazırlanması üçün ümumi tələblər qanunvericiliyin tələblərinə uyğunlaşdırılıb, istifadə olunan bir sıra anlayışların açıqlaması verilib ki, bu da vergi orqanları tərəfindən kargüzarlığın aparılması zamanı ortaya çıxan suallara aydınlıq gətirməklə qaydaların tətbiqini asanlaşdırır.

Beləliklə, vergi orqanlarında sənədlərin razılaşdırılmasının AVİS Kargüzarlıq altsistemi vasitəsilə elektron şəkildə aparılması, sənədlərin mahiyyətindən və predmetindən asılı olaraq razılaşdırma vizası verəcək vəzifəli şəxslər, kağız daşıyıcıda olan sənədin razılaşdırılması qaydaları müəyyən olunub, razılaşdırılma proseduru xeyli sadələşdirilib.

***- Vətəndaşların müraciətlərinə baxılması sahəsində Vergilər Nazirliyində daha hansı tədbirlərin görülməsi nəzərdə tutulur?***

- Əlverişli biznes mühitinin yaradılmasında və sahibkarlığın inkişafında vətəndaşların dövlət qurumları ilə iş prosesində rastlaşdıqları bütün problemlərin mümkün qədər tez və rahat şəkildə aradan qaldırılmasına imkan verən işlək mexanizmlərin yaradılması, bütün vətəndaşlar, ictimai və siyasi təsisatlar, eyni zamanda QHT sektorunun və medianın ictimai nəzarətin təşkilində iştirakı da əhəmiyyətli rol oynayır. Ona görə də vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin spektrinin genişləndirilməsinə, bu xidmətlərdən istifadənin kütləviləşdirilməsinə xüsusi diqqət yetiriləcəkdir. Vergi ödəyicilərinə xidmət strukturlarının əməkdaşları istisna olmaqla, digər işçilərin vergi ödəyiciləri ilə birbaşa təmas formalarını məhdudlaşdırmaq əsas hədəflərdən olacaqdır. Bütün bunlar dövlət vergi orqanlarına inamın artmasına, onların fəaliyyətində şəffaflığın təmin edilməsinə, korrupsiya və süründürməçiliyin qarşısının alınmasına yönəldilmiş tədbirlərdir.

# Vergi ödəyicilərinin maarifləndirilməsinə xüsusi önəm verilir

Ölkədə aparılan iqtisadi islahatların, vergi sahəsində görülən işlərin, zəruri təkmilləşdirmələrin və dəyişikliklərin arzu olunan nəticəni verməsi, hər bir vətəndaşa, eləcə də vergi ödəyicilərinə düzgün çatdırılması üçün məlumatlandırma, maarifləndirmə və təbliğat işlərinin xüsusi rolu var. Bu işlər əsasən Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi, taxes.gov.az veb saytı, vergi ödəyicilərinə xidmət mərkəzləri, orta məktəblərdə və peşə liseylərində yaradılmış vergi metodiki kabinetləri və «Vergi dostları» şəbəkəsi, eləcə də sosial media vasitəsilə həyata keçirilir.

Vergilər Nazirliyinin rəsmi internet səhifəsində vergi ödəyicilərinin vergilər barədə məlumatları rahat əldə etməsi üçün bütün zəruri tədbirlər görülüb. «Vergi və dövlət rüsumlarını hara köçürməli?», «Vergi borcları üzrə kömək», «Vergilər nazirinin bölgələrdə qəbulu», «Vergi yoxlamaları: əsaslar və prosedurlar», «Onlayn bələdçi» və digər bölmələr yaradılaraq vergi ödəyicilərinin ixtiyarına verilib. Yaxşı haldır ki, görülmüş işlər öz müsbət nəticəsini verir və layiqli qiymətini alır. Məsələn, «Multimedia» Mərkəzi tərəfindən aparılan ictimai informasiya subyektlərinin rəsmi internet resurslarının monitorinqinin nəticələrinə görə, Vergilər Nazirliyinin rəsmi internet səhifəsi ardıcıl olaraq 7 il dalbadal birinci yerə layiq görülmüşdür. Nazirliyin rəsmi internet səhifəsindən, buradakı məlumat və elektron xidmətlərdən istifadənin asanlaşdırılması və əhalinin bütün təbəqəsi üçün əlçatan olması məqsədilə İOS və Android sistemli smartfon tipli avadanlıqlar üçün müvafiq parametrləri özündə əks etdirən xüsusi proqram hazırlanmış və «AppStore» və «PlayMarket» servislərində yerləşdirilmişdir.

Təkcə bu ilin birinci rübü ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 1.245.504 istifadəçi daxil olmuşdur. Səhifənin «onlayn bələdçi» xidmətinə 4887 müraciət edilmiş və onlardan 4778-i cavablandırılmışdır. «Vergilər naziri ilə əlaqə» bölməsinə rüb ərzində 473 müraciət daxil olmuşdur.

Geniş auditoriyaya malik «Facebook», «Twitter» sosial şəbəkələrində, «Youtube» və «video.az» video hostinq səhifələrində yaradılmış səhifələrin populyarlığı getdikcə genişlənir. Birinci rüb ərzində nazirliyin «Facebook» səhifəsinin istifadəçilərinin sayı 36.647-yə çatmışdır. Üç ayda səhifədə istifadəçilərin maraq dairəsinə uyğun 80 mövzuda maarifləndirmə, təbliğat və təşviqat xarakterli məlumatlar yerləşdirilmişdir. «Twitter» sosial şəbəkəsinin auditoriyası da genişlənməkdədir.

Bunlarla yanaşı, rüb ərzində Vergilər Nazirliyi ilə ATV telekanalının birgə layihəsi olan, ölkənin iqtisadi həyatında baş verən yenilikləri operativ şəkildə tamaşaçılara çatdıran «İqtisadi zona» verilişinin 12 buraxılışı yayımlanmışdır.

Birinci rübdə göstərilmiş ünvanlı məlumatlandırma xidməti




Ərazi vergilər departamentləri və idarələrinin yerləşdiyi şəhərlər istisna olmaqla, digər şəhər və rayon mərkəzlərində vergilərin könüllü ödənilməsi sistemini inkişaf etdirmək, elektron xidmətlərdən istifadəni asanlaşdırmaq məqsədilə yaradılmış vergi ödəyicilərinə xidmət mərkəzlərinin sayı 56-ya çatmışdır. Xidmət strukturlar tərəfindən birinci rübdə 123.160 vətəndaş qəbul edilib. Onlardan 190.491 xidmət göstərilib. Hesabat dövründə 3395 ünvanlı məlumatlandırma xidməti göstərilmişdir. Vergi ödəyicilərinə xidmət strukturları tərəfindən rüb ərzində 12.904 «ASAN imza» sertifikatı verilmişdir. Həyata keçirilmiş məlumatlandırma tədbirləri nəticəsində təqdim edilməli olan 333.648 vergi bəyannaməsindən 276.495-i elektron qaydada həyata keçirilmişdir.

Vergi ödəyicilərinə xidmət strukturları tərəfindən birinci rübdə verilmiş "ASAN imza" sertifikatlarının sayı




Vergi ödəyiciləri və vətəndaşların vergilərlə bağlı bütün suallarına cavab tapa biləcəyi digər ünvan isə nazirliyin Çağrı Mərkəzidir. Bu ilin ilk rübü ərzində «195» Çağrı Mərkəzinin əməkdaşları tərəfindən canlı əlaqə zamanı 65.363 müraciət cavablandırılmışdır. Vergi ödəyiciləri tərəfindən 8581 dəfə vergi borcu, 5719 dəfə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə edilmişdir.

Kənd və rayonların orta məktəb müəllimlərindən ibarət «Vergi dostları» layihəsinin icrasına 2012-ci ildən başlanılmışdır. Hazırda respublikanın 52 rayonundan 1459 nəfər müəllim «Vergi dostları» şəbəkəsinə qoşulmuşdur. Rüb ərzində «Vergi dostları», bələdiyyələr və metodiki kabinetlər, vergi ödəyiciləri ilə ümumilikdə 278 görüş keçirilmişdir.

Vergilərlə bağlı ən zəruri məlumatların əhaliyə çatdırılması məqsədilə vergi qanunvericiliyi və vergi inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən bukletlər, kitabçalar və jurnallar nəşr edilmişdir. «ITE Group» şirkəti tərəfindən respublikada təşkil olunan müxtəlif yönümlü sərgilərdə vergilərin müxtəlif aspektlərini əhatə edən təbliğat işləri aparılmışdır.

**AYTƏN**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

### Gəlir vergisi

***Müəlliməm, iki məktəbdə işləyirəm. Mənə ödənilən əməkhaqqından gəlir vergisi hansı qaydada tutulmalıdır?***

Vergi Məcəlləsinin 101.1-ci maddəsinə görə, muzdla işləyən fiziki şəxslərin aylıq gəlirinin 2500 manatadək olan hissəsindən 14 faiz, 2500 manatdan çox olduqda isə 350 manat əlavə edilsin 2500 manatdan çox olan məbləğin 25 faiz dərəcəsi ilə vergi tutulur.

Vergi Məcəlləsinin 102.1.6-cı maddəsinə uyğun olaraq, fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda ölkə üzrə yaşayış minimumunun 1 misli, illik gəliri 30000 manatadək olduqda isə ölkə üzrə yaşayış minimumunun 12 misli məbləğində olan hissəsi gəlir vergisindən azad edilir.

«Yaşayış minimumu haqqında» Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli, 1379-IVQ nömrəli Qanununun 1-ci maddəsinə əsasən, 2016-cı il üçün yaşayış minimumu ölkə üzrə 136 manat məbləğində müəyyən edilmişdir.

Qeyd olunan müddəalara əsasən:

İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir.

Fiziki şəxsin gəlirindən verginin yuxarıda göstərilən qaydada hesablanması həmin şəxsin iş yerlərinin eyni təşkilatın tabeliyində olmasından asılı olmayaraq həyata keçirilir.

Bununla yanaşı, fiziki şəxsin əsas iş yerində (əmək kitabçasının olduğu yerdə) hər hansı muzdlu işlə əlaqədar əldə edilən aylıq gəliri 2500 manatadək olduqda ölkə üzrə yaşayış minimumunun 1 misli məbləğində (2016-cı il üçün 136 manat) olan hissəsi gəlir vergisindən azad edilir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya s.musayeva@taxes.gov.az elektron poçt ünvanına göndərə bilərsiniz

# «AmCham» Azərbaycanda biznesə dəstəyi artırmaq niyyətindədir

**Azərbaycandakı Amerika Ticarət Palatası («AmCham») yerli istehsalı stimullaşdıran addımların atılması, ixracın təşviqi ilə bağlı yeni qaydaların hazırlanması, idxal-ixrac əməliyyatlarının asanlaşdırılması, şəffaflığın təmin edilməsi məqsədilə gömrük ödənişlərinin «ASAN Xidmət» terminalları vasitəsilə həyata keçirilməsi və digər islahatları yüksək qiymətləndirib.**

Palatanın birinci vitse-prezidenti Teybə Quliyeva bildirib ki, lisenziyalaşdırma sahəsində fəaliyyət növlərinin azaldılması, sahibkarların hüquqlarının qorunmasına xidmət edən qanunların qəbul olunması, xidmətlərin elektronlaşdırılması, ödənişlərin qeyri-nağd şəkildə aparılmasının genişləndirilməsi kimi mühüm addımlar biznes ictimaiyyəti tərəfindən müsbət qarşılanır. Dövlətin özəl biznesin inkişafına xidmət edən müxtəlif təşviqedici addımları daxili istehsalın artması, sahibkarlara kredit resurslarına asan çıxışı, onların maraqlarının müdafiəsi baxımından əhəmiyyətlidir.

***Hökumət və biznes arasında körpü***

Dövlət-biznes münasibətlərinin yeni formatda təşkili, özəl biznesə yanaşmanın müasir əsaslar üzərində qurulduğu şəraitdə biznes ictimaiyyətinin üzərinə də böyük məsuliyyət düşür. T.Quliyevanın sözlərinə görə, Palata aparılan islahatların təşviqi və bu məsuliyyətlərin şirkətlərə ötürülməsi üçün yaxşı platformadır: «Biz bu islahatların və səylərin ikitərəfli olmasını təmin etmək üçün hökumət və biznes, o cümlədən real sektor arasında körpü rolunu oynayırıq. Hesab edirik ki, dövlət qurumlarında yaradılan Apelyasiya şuralarında sənaye və sektor biliklərinə malik mütəxəssislərin təmsil olunması vacibdir. Həmçinin, xarici investorların Azərbaycana gəlməsi və fəaliyyətə başlaması üçün icazələrin daha da asanlaşdırılması məqsədəuyğun olardı». Qurumun qənaətinə görə, iş icazəsi rejiminin yaxşılaşdırılması daha çox sənaye mütəxəssislərinin Azərbaycana gəlməsi, öz biliklərini yerli şirkətlərlə paylaşması baxımından da çox əhəmiyyətlidir. Eyni zamanda, yeni fəaliyyətə başlayan Maliyyə Bazarlarına Nəzarət Palatasının Azərbaycanın maliyyə sektoruna, milli valyutada sabitlik və etimadın artırılması üçün lazımi addımlar atacağına əmin olan «AmCham» yeni qurumdan şirkətlərin və özəl sektorun maliyyə mənbələrinə çıxışının yaxşılaşmasını və uzunmüddətli kredit bazarının inkişafının stimullaşdırılmasını gözləyir.

***«Ağ Kitab» - azad biznesə dəstək sənədi***

«AmCham»ın prezidenti İlqar Vəliyevin sözlərinə görə, Palata xarici şirkətləri Azərbaycanın real sektorunun kreditləşməsinə təşviq etmək məqsədilə müxtəlif iqtisadi qurumlar və sahibkarların ictimai təşkilatları ilə əməkdaşlığı artırmaq niyyətindədir. Biznes maraqlarını dəstəkləyən və təşviq edən özəl qeyri-kommersiya assosiasiyası kimi, 1996-cı ildən indiyədək Azərbaycan iqtisadiyyatının bütün bölmələrində fəaliyyət göstərən şirkətlərlə sıx əlaqələrə malik olan qurum ölkənin maliyyə-bank, sığorta, vergi, gömrük, kredit, audit və digər sahələrində tərəfdaşları ilə birgə layihələrin təşkili və həyata keçirilməsində fəal rol oynayır, özəl sektorun və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı rəy və təkliflərlə çıxış edir. Palatada təmsil olunan 260-dan artıq şirkətin Azərbaycanda xarici investisiyalarda payı 80% təşkil edir.

İ.Vəliyev qeyd edib ki, hazırda təmsil etdiyi qurum tərəfindən «Ağ Kitab» adlı sənəd üzərində ciddi iş gedir. Vergi, gömrük, sığorta, maliyyə, bank işi və iqtisadiyyatın digər sahələrini əhatə edən sənəddə xarici və yerli şirkətlərlə əməkdaşlığın yeni istiqamətləri, biznes mühitinin təkmilləşdirilməsi və qarşıdakı dövrdə fəaliyyətin digər hədəflərini əks etdirir. Burada Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması üzrə biznes ictimaiyyətinin təklif və tövsiyələri də nəzərə alınıb. Qarşıdakı dövrdə kiçik və orta sahibkarlığa güzəştli kreditlərin verilməsini stimullaşdırmaq, bu sahəyə xarici investorları cəlb etmək, Azərbaycanın müvafiq iqtisadi qurumları ilə birgə əməkdaşlıq çərçivəsində müştərilərlə maliyyə institutları arasında dialoqun yaradılması, ölkədə mikro, kiçik və korporativ sektorlarda kreditləşməyə marağın artması xüsusi diqqət mərkəzində olacaq. Əməkdaşlığa uyğun olaraq, özəl müəssisələrin inkişaf etdirilməsinə yardım mexanizminin təkmilləşdirilməsi, xüsusilə də kiçik və orta sahibkarlıq sektorunun maliyyə mənbələrinə çıxış imkanlarının artırılması nəzərdə tutulur.

***ABŞ şirkətləri islahatlardan faydalanmaq niyyətindədir***

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Robert Sekuta da ikitərəfli əlaqələrin inkişafı üçün yaxşı potensialın olduğunu bildirib. Onun sözlərinə görə, ABŞ şirkətləri Azərbaycanda təkcə istehsalat sahəsində yox, həmçinin xidmət və digər sahələrdə daha güclü mövqeyə yiyələnmək üçün xarici ölkələrdəki şirkətlərlə fəal işləyirlər. Amerika şirkətləri kənd təsərrüfatı, yüksək texnologiyalar və turizm sahələrində yeni layihələrə başlamağa önəm verir. Azərbaycan hökuməti tərəfindən ixracın stimullaşdırılması, idxal və ixrac əməliyyatında tələb olunan sənəd və prosedurların sayının azaldılması, ixracdakı hesablamaların daha da sadələşdirilməsi, ixracatçılar üçün münbit şəraitin yaradılması, daşınma xərclərinin aşağı salınması ilə bağlı aparılan tədbirlər ABŞ şirkətlərinin də marağındadır və onlar bu imkanlardan yararlanmaq niyyətindədirlər.

İqtisadiyyat nazirinin müavini Sahil Babayevin sözlərinə görə, ABŞ şirkətlərinin Azərbaycana marağı böyükdür, bu ölkənin nüfuzlu iş adamlarının respublikamıza işgüzar səfərləri geniş vüsət alıb. Həmin görüşlərdə özəl biznesin maliyyələşdirilməsi, yeni layihələrə başlanması, regionlara sərmayə qoyuluşlarına amerikalı iş adamlarının təşviq edilməsi əsas diqqət mərkəzində olub. Hazırda ABŞ-ın azad iqtisadi zonalar üzrə ixtisaslaşmış nüfuzlu şirkətlərinin nümayəndələri ilə səmərəli danışıqlar davam etdirilir. Nazir müavini bildirib ki, indiyədək ABŞ-ın Azərbaycana yatırdığı investisiyanın 90%-i neft sektoruna yönəldilib. Amerikanın ölkəmizə yatırdığı 10 milyard dollar həcmində sərmayənin cəmi 1 milyard dolları qeyri-neft sektorunun payına düşür. Artıq ABŞ kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, regionlarda yeni iş yerlərinin yaradılması məqsədilə sərmayə yatırmağı nəzərdən keçirir.

***Vergi sahəsində səmərəli əməkdaşlıq mövcuddur***

Dövlət-biznes münasibətlərinin möhkəmlənməsində ciddi tərəfdaşa çevrilən «AmCham» ilə Vergilər Nazirliyi arasında səmərəli əməkdaşlıq qurulub. Azərbaycanın vergi sistemində aparılan islahatlar, Vergi Məcəlləsinə edilmiş dəyişikliklər, vergi ödəyicilərinin vergi öhdəliklərinə əməletmə səviyyəsinin daha da yüksəldilməsi, vergi orqanı ilə biznes strukturları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsi, yüksək vergi mədəniyyətinin formalaşdırılması «AmCham»ın da diqqət mərkəzində saxladığı əsas məsələlərdəndir və bu sahədə aparılan yeniliklərin özəl biznesə çatdırılmasında təşkilatın rolu mühüm əhəmiyyət kəsb edir.

*Vergi Məcəlləsinə edilmiş dəyişikliklər, vergi ödəyicilərinin vergi öhdəliklərinə əməletmə səviyyəsinin daha da yüksəldilməsi, vergi orqanı ilə biznes strukturları arasında partnyorluq münasibətlərinin inkişaf etdirilməsi, yüksək vergi mədəniyyətinin formalaşdırılması «AmCham»ın da diqqət mərkəzində saxladığı əsas məsələlərdəndir*

Ötən illər ərzində Vergilər Nazirliyi və «AmCham»ın birgə təşkilatçılığı ilə müxtəlif forumlar təşkil edilib, vergi qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində aktual mövzular üzrə müzakirələr aparılıb, konkret təkliflər irəli sürülüb. Tərəflər arasında qurulmuş sıx və açıq dialoq, geniş müzakirələr şəraitində əldə edilən ortaq yanaşmalar hazırda da öz mühüm təsirini göstərir, azad biznesə dəstəyin daha da yaxşılaşmasına əlverişli zəmin yaradır. «AmCham»ın üzvü, «Deloitte and Touche» MMC-nin Azərbaycan ofisinin nümayəndəsi Nurlan Kərimovun sözlərinə görə, sahibkarlıq sahəsində yoxlamaların sayının azaldılması və bu sahədə müvafiq balanslaşdırmanın yaradılması özəl biznesin və qeyri-neft sektorunun daha da inkişafına təkan verəcək, şəffaflığın artmasına səbəb olacaq. Bütün bunlar isə dövlət büdcəsinə daha çox vergi daxil olması deməkdir.

**E.CƏFƏRLİ**

# Aqrar sahədə şəffaflığın təmin olunması məqsədilə...

Bu günlərdə Azərbaycan Prezidenti tərəfindən «Ərzaq məhsullarının tədarükü və təchizatı» Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında sərəncam imzalanıb. Yeni qurumun əsas fəaliyyəti ərzaq məhsullarının istehsalçılarından məhsulların alışını və tədarükünü təşkil etmək, satıcılara çatdırılmasını həyata keçirməkdən ibarətdir. Səhmdar cəmiyyətinin kənd təsərrüfatı məhsullarının istehsalını və emalını stimullaşdırmaq, ərzaq məhsullarının keyfiyyətini yüksəltmək, dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasını mərkəzləşdirilmiş qaydada həyata keçirmək səlahiyyətlərinə malik olacaq.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun sözlərinə görə, qərar ərzaq təchizatı ilə bağlı bir sıra problemlərin həllinə təkan verəcək, istehsal və tədarük sisteminin inteqrasiyasını gücləndirəcək. Yeni qurumun yaradılması ölkədə ərzaq məhsullarının tədarükü və təchizatı prosesini xeyli asanlaşdıracaq. Ən başlıcası isə ərzaq məhsullarının istifadəsinə nəzarətin güclənməsinə, şəffaflığın artmasına səbəb olacaq. Bundan başqa, xaricdən gətirilərək büdcə təşkilatlarına satılan keyfiyyətsiz məhsulların qarşısı alınacaq və nəticədə ölkədən daha az valyuta çıxarılacaq. Ərzaq bazarında qiymətlərə nəzarət də diqqət mərkəzində olacaq. Tədarük və təchizat agenti ilə ərzaq məhsullarının istehsalçı və ya satıcıları arasında bağlanılan müqavilə formaları da ictimaiyyətə açıq olacaq, bu isə süni qiymət artımının qarşısını alacaq.

Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Firdovsi Fikrətzadənin sözlərinə görə, «Dövlət müəssisə və təşkilatları tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması» qaydası ərzaq məhsulunu satmaq istəyində olan istehsalçılara elektron qaydada qeydiyyata düşərək məhsullarını dövlət tədarükçüsünə satmağa şərait yaradacaq. Dövlət birbaşa yerli istehsalçıdan mal əldə etmək üçün onların lazımi satış imkanlarını səfərbər edəcək. İstehsalçıya «ASAN xidmət» mərkəzinə müraciət etməklə istehsal məhsulları barədə zəruri məlumatları elektron portalda yerləşdirmək imkanı yaradılacaq. Təchizat agenti ilə ərzaq məhsullarının istehsalçılarla istehlakçıları arasında yeni formatda qarşılıqlı əlaqə yaranacaq. Belə ki, bundan sonra büdcə təşkilatları üçün lazım olan ərzaq məhsulları mərkəzləşdirilmiş və şəffaf sistem üzrə təzimlənəcək. Satın alınması nəzərdə tutulan ərzaq məhsulları, məhsulların qiymətləri və satınalma şərtləri, alınan malların ad və qiymətləri, sifarişlər elektron formada müvafiq portalda yerləşdiriləcək. Bundan başqa, İqtisadiyyat Nazirliyi təşkilatlara verilən ərzaq məhsullarının hər bir növü üzrə topdansatış bazar qiymətlərini müəyyən etmək üçün araşdırmalar aparacaq, əməliyyatları təhlil edib elektron səkildə ictimaiyyətə açıq elan edəcək. Bu isə təqdim olunan ərzaq və təchizat agenti elektron portalda yerləşdirilən istehsalçıların fəaliyyətinin monitorinqini aparacaq, məhsulun keyfiyyəti və istehsal həcmi barədə əsaslı faktları elektron portalda yerləşdirəcək. Bu proses əsas etibarilə xarici ölkələrin şirkətlərinə sifarişlərin qarşısının alınmasına və daha çox yerli malların satılmasına səbəb olacaq. Beləliklə, qeyri-neft sektorunda, əsasən də yeyinti sənayesi, kənd təsərrüfatı və aqrar-sənaye sahələrində fəaliyyət göstərən sahibkarlar üçün yeni stimul yaranacaq, ölkədə məhsul bolluğunun yaradılmasına, istehsal olunan məhsulların keyfiyyətinin yaxşılaşdırılmasına gətirib çıxaracaq.

*Bundan sonra büdcə təşkilatları üçün lazım olan ərzaq məhsulları mərkəzləşdirilmiş və şəffaf sistem üzrə təzimlənəcək*

**ELBRUS**

# Fərdi uçot sistemində artım qeydə alınıb

Ölkəmizdə əmək fəaliyyəti ilə məşğul olan vətəndaşların gələcək etibarlı pensiya təminatını stimullaşdıran fərdi uçot sisteminin əhatə etdiyi şəxslərin sayı durmadan artır. Təkcə son bir ildə fərdi uçot sistemində qeydiyyata olan sığortaolunanların sayında 185 min nəfərə yaxın artım qeydə alınıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı bu ilin ilk rübündə 45.837 nəfər artaraq 3.225.991 nəfərə çatıb.

Onlardan 674.698 nəfəri (20,9%) 30 yaşa qədər, 811.537 nəfəri (25,2%) isə 30-40 yaşlarında olan vətəndaşlardır. Sığortaolunanların sırasında 40-50 yaşlarında 653.590 nəfər (20,2%), 50-60 yaşlarında 682.239 nəfər (21,1%) 60 yaşdan yuxarı olanlar isə 403.927 nəfər (12,5%) təşkil edir.

Bu ilin yanvar-mart aylarında fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanlar




Azərbaycanda tətbiq edilən fərdi uçot sistemi respublikamızda əmək fəaliyyəti ilə məşğul olan, ölkənin mənbələrindən əmək ödənişi və məcburi dövlət sosial sığorta haqqına cəlb olunan digər gəlirləri əldə edən əcnəbiləri də əhatə edir. Həmin şəxslərin məcburi dövlət sosial sığortasına cəlb olunmasının davamı kimi, bu ilin birinci rübündə fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı 1578 nəfər artaraq 29.442 nəfərə çatıb. Ümumilikdə ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin aprel ayının 1-i tarixinə sistemdə fərdi şəxsi hesabı açılan əcnəbilərin siyahısına daha 6352 nəfər əlavə olunub.

Hazırda fərdi uçot sistemində qeydiyyatda olan əcnəbi vətəndaşlar 120-yə yaxın xarici ölkəni təmsil edirlər. Onların sırasında daha yüksək say göstəricisi Türkiyə, Gürcüstan və Rusiya vətəndaşlarına aiddir. Sonrakı yerləri Hindistan, İran, Çin, Banqladeş, Böyük Britaniya və Şimali İrlandiya Krallığı, Pakistan, Ukrayna, Filippin və s. ölkələrin vətəndaşları tutur.

Fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilər




**AYTƏN**

# Vergi daxilolmalarında qeyri-neft sektorunun payı artır

Hazırda ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biri vergi siyasətinin koordinasiyasını gücləndirmək, qeyri-neft gəlirlərinin ümumi daxili məhsulda və büdcə gəlirlərində xüsusi çəkisini artırmaqdan ibarətdir. 2016-cı ilin ilk 3 ayı üzrə büdcəyə vergi daxilolmalarının artım dinamikası bu siyasətin özünü doğrultduğunu təsdiqləyir. Cari ilin yanvar-mart aylarında Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 1542 milyon manat vəsait daxil olub ki, bu da mədaxil proqnozunun 101,4 faiz icra edilməsi deməkdir. Həmin vəsaitin 78,9 faizi və yaxud 1216,4 milyon manatı qeyri-neft sektorundan daxilolmaların payına düşür ki, bu da 2015-ci ilin müvafiq dövrünə nisbətən 12,9 faiz-bənd çoxdur.

Vergi daxilolmalarının strukturunda qeyri-neft sektorunun payının 80%-ə yaxınlaşması dövlət büdcəsinə daxilolmalarda neft-qaz sektorunun payının azaldığını və qeyri-neft sahələrinin inkişafı sayəsində bu sektordan əldə olunan gəlirlərin artdığını göstərir. Xatırladaq ki, 2014-cü ildə dövlət büdcəsinə vergi daxilolmalarının ümumi həcmi 7 milyard 113,7 milyon manat təşkil edib və bu vəsaitin 2 milyard 807,2 milyon manatı neft-qaz sektoru üzrə daxilolmalardır. Həmin il büdcəyə qeyri-neft-qaz sektoru üzrə 4 milyard 306,5 milyon manat vəsait daxil olub ki, bu da 2013-cü illə müqayisədə 14,5% çoxdur. 2015-ci ildə isə bu sektor üzrə büdcəyə 5 milyard 28,3 milyon manatdan artıq vəsait daxil olub və qeyri-neft sektorundan vergi daxilolmalarının payı 70,6 faizə çatıb.

Göründüyü kimi, Azərbaycan hökumətinin həyata keçirdiyi səmərəli iqtisadi siyasətə uyğun olaraq, son illər qeyri-neft gəlirlərinin ümumi daxili məhsulda və büdcə gəlirlərində xüsusi çəkisinin artımı nəzərə çarpmaqdadır. Fiziki şəxslərdən gəlir vergisi və məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların bazasının genişləndirilməsi, vergi daxilolmalarının yığım əmsalının artırılması, respublikanın şəhər və rayonları üzrə gəlir və xərclərin tarazlaşdırılması, neftdənkənar sahələrdə iqtisadi fəallığın güclənməsi, yeni müəssisələrin yaradılması və onların ödənişlərinin həcminin artması qeyri-neft sektorundan dövlət büdcəsinə vergi daxilolmalarının artımında mühüm rol oynamaqdadır.

2015-ci ildə ölkəmizdə 3 mindən artıq yeni müəssisə yaradılıb və onların böyük bir qismi məhz bölgələrin payına düşür. Bunlar əsasən qeyri-neft sektorunu əhatə edən 200-ə yaxın orta və iri müəssisələrdir ki, bu da vergi daxilolmalarında əlavə mənbələrin cəlb edilməsinə mühüm təsir göstərib. Həyata keçirilən bu tədbirlər qeyr-neft sektorunda istehsalın 9 faiz-bənd artmasına səbəb olub.

2016-cı ildə vergitutma və sosial yığımların bazasının artırılması, müəssisələrdə iş yerlərinin rəsmiləşdirilməsi ilə bağlı tədbirlərin gücləndirilməsi, əmək müqaviləsi bildirişlərinin elektron informasiya sistemində qeydiyyatının aparılması, qeyri-leqal məşğulluqla mübarizənin həyata keçirilməsi qeyri-neft vergi daxilolmalarının həcminin artmasında mühüm rol oynayacaq. Bakı şəhərində və regionlarda yeni istehsal, xidmət və sənaye müəssisələrinin fəaliyyətə başlaması, uçotdankənar iş yerlərinin leqallaşdırılması hesabına vergi daxilolmalarının həcminin artacağı proqnozlaşdırılır.

2016-cı il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, vergi yükünün əhəmiyyətli dərəcədə aşağı salınmasına səbəb olub və bu, sahibkarlıq subyektlərinin sərəncamında daha çox vəsaitin qalmasına imkan verir. Buna baxmayaraq, özəl sektordan vergi daxilolmalarının həcminin artması müşahidə olunur. Bununla yanaşı, cari ildən etibarən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə vergitutma rejimində seçim hüququ verilib, daşınmaz əmlakın satışının sadələşdirilmiş vergiyə cəlb edilməsinə başlanılıb, müxtəlif vergi növləri üzrə vergi bazasının genişləndirilməsi və vergidən yayınmaların qarşısının alınması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Bu amillər də qeyri-neft vergi gəlirlərinin həcminin artmasına öz təsirini göstərib.

Qeyri-neft sektoru üzrə vergi daxilolmalarının həcminin artmasında regionlardakı mənbələrin vergiyə cəlb olunması da mühüm əhəmiyyət kəsb edir. Ölkənin sosial-iqtisadi inkişafına yönəldilən ardıcıl tədbirlər sayəsində son 12 ildə minlərlə yeni müəssisə yaradılıb və onların böyük əksəriyyəti regionların payına düşür. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2012-ci ildə müxtəlif sahələrdə yaradılan müəssisələrin sayı 4,4, 2013-cü ildə 8,9 faiz, 2014-cü ildə 9,9 faiz, 2015-ci ildə isə 6,1 faiz artıb. Həmin müəssisələr qeyri-neft sektorunu əhatə edir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən siyasət ölkənin müxtəlif bölgələrində iqtisadiyyatın və sahibkarlığın daha intensiv inkişafına münbit şərait yaradıb, regionlardan vergi ödənişlərinin ümumi daxilolmalarda payının əhəmiyyətli dərəcədə artmasına səbəb olub. Əhalinin böyük əksəriyyətinin regionlarda kənd təsərrüfatı ilə məşğul olmasına, ailə-kəndli təsərrüfatlarının və fermer təsərrüfatının digər sahələrinin uzun illər vergidən azad edilməsinə baxmayaraq, regionlardan vergi daxilolmaları 2004-cü ildəki 42,3 milyon manatdan 2011-ci ildə 425 milyon manata, 2012-ci ildə 445,5 milyon manata, 2013-cü ildə 539 milyon manata, 2014-cü ildə 591,8 milyon manata, 2015-ci ildə isə 622,1 milyon manata çatıb.

**Elbrus CƏFƏRLİ**

Dövlət büdcəsinə qeyri-neft sektoru üzrə vergi daxilolmaları (milyon manatla)




BİR CÜMLƏ - BİR XƏBƏR

Prezident İlham Əliyev Ümumdünya Şahmat Olimpiadasının təşkili və keçirilməsi ilə bağlı ölkəmizə gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında sərəncam imzalayıb.

Ötən həftə Parisdə Azərbaycanın turizm imkanlarının təqdim olunması mərasimi keçirilib.

İstanbulda Azərbaycanın turizm nümayəndəliyi fəaliyyətə başlayıb.

«Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin III Dövlət Proqramı»nın layihəsi hazırlanıb.

Qaradağ Sənaye Parkında rezidentin fəaliyyət məqsədləri üçün bütün növ malların idxalı 2016-cı il mayın 1-dən 5 il müddətinə gömrük rüsumundan azad edilir.

Beynəlxalq Valyuta Fondu Azərbaycanın Maliyyə Bazarlarına Nəzarət Palatası ilə birgə layihələr həyata keçirmək niyyətindədir.

Cari ilin birinci rübündə əsas kapitala 2 milyard 876,8 milyon manat məbləğində vəsait yönəldilib.

Azərbaycan günəş enerjisi istehsalını 4 dəfəyədək artırıb.

Bu gün İran ilə Azərbaycanın dəmir yollarını birləşdirəcək körpünün təməli qoyulacaq.

# Elektron imzadan istifadə edənlərin sayı çoxalır

Ölkəmizdə informasiya texnologiyalarının və mobil xidmətlərin davamlı inkişafı əhali tərəfindən elektron xidmətlərdən istifadə tələbatını artırmış və bu səbəbdən, elektron imzaya ehtiyac ön plana keçmişdir. Müasir dövrdə göstərilən xidmətlərin icra prosesi zamanı göndərilən və qəbul edilən sənədlərin onlayn rejimdə qısa vaxtda elektron imzalanması zərurəti sürətlə artır. Bu sahədə mövcud və gələcəkdə yarana biləcək problemlərin qarşısının alınması məqsədilə Vergilər Nazirliyinin nəzdində Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi ilə sıx inteqrasiya olunmaqla bütün mövcud kompüter əməliyyat sistemlərini və mobil qurğuları dəstəkləyən Elektron İmza Sertifikat Xidmətləri Mərkəzi yaradılmışdır. Mərkəz tərəfindən elektron imzaların Avropa ölkələri ilə qarşılıqlı tanınması üçün müvafiq işlər görülmüş və hazırda da davam etdirilir. Bu isə Azərbaycan vətəndaşlarına digər ölkə vətəndaşları ilə birgə şirkətlər yarada bilmək və müəssisələrarası müqavilələri elektron formada internet üzərindən imzalamaq imkanı yaradır.

Virtual dünyanın şəxsiyyət vəsiqəsi hesab olunan «Elektron imza» kartlarından istifadə edənlərin sayı artmaqda davam edir. «Elektron hökumət» portalından verilən məlumata görə, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi tərəfindən ötən il dövlət qurumları üzrə 47 min 532, fiziki şəxslər üzrə 15 min 832, hüquqi şəxslər üzrə isə 13 min 820 «elektron imza» sertifikatı istifadəyə verilib. Ümumilikdə isə indiyədək Milli Sertifikat Xidmətləri Mərkəzinin təqdim etdiyi «e-imza»ların sayı 42 min 561-ə çatıb. Bu il aprelin 1-nə olan statistikaya görə, dövlət qurumları üzrə 27 min 282, fiziki şəxslər üzrə 7995, hüquqi şəxslər üzrə isə 7284 «e-imza» sertifikatı istifadəyə verilib.




Ötən il dövlət qurumları tərəfindən sənəd imzalama tranzaksiyaların sayı 3 milyon 160 min 353, hüquqi və fiziki şəxslər tərəfindən imzalama tranzaksiyaların sayı isə 906 min 334 olub.

Yeri gəlmişkən onu da qeyd edək ki, Vergilər Nazirliyinin vergi ödəyicilərinə xidmət mərkəzlərində, ərazi vergi idarələrinin və departamentlərinin vergi ödəyicilərinə xidmət şöbələrində və ya nazirliyin «ASAN xidmət» mərkəzlərindəki nümayəndəsi ilə müqavilə bağlayaraq elektron imza üçün təkmil sertifikat almaqla «Asan imza» xidmətini aktivləşdirmək olar. ASXM-in istismara verilməsi İnternet Vergi İdarəsində istifadəçi səlahiyyətlərinin idarə edilməsi sisteminin yaradılmasına (bu sistem bir VÖEN-lə bağlı əməliyyatların eyni vaxtda qeyri-məhdud sayda istifadəçi tərəfindən həyata keçirilməsinə imkan verir), hüquqi və fiziki şəxslərin onlayn qeydiyyatı, POS-terminalların qeydiyyatı, elektron vergi hesab-fakturalarının göndərilməsi, ƏDV-nin depozit hesabı və s. sahələrdə «Asan imza»nın tətbiqinin həyata keçirilməsinə imkan yaratmışdır.

**Rəşad SADIQOV**

# Xüsusi iqtisadi zonalar xarici sərmayədarların maraq dairəsində

İranın xarici işlər nazirinin müavini İbrahim Rəhimpur bildirib ki, Azərbaycanla yeni texnologiyalar sahəsində yaxşı əməkdaşlıq imkanları mövcuddur və bu istiqamətdə əsas müzakirə mövzularından biri azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılmasıdır. Qeyd edək ki, Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla, azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması nəzərdə tutulub. Azərbaycanın logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsinə və ölkədə çoxşaxəli nəqliyyat infrastrukturunun yaradılmasına xidmət edən bu layihə qonşu İran sərmayəçilərinin də marağına səbəb olub.

İbrahim Rəhimpur deyib ki, İranın azad iqtisadi zonaların yaradılmasında iştirakı hər iki ölkə arasında inteqrasiyanın və beynəlxalq ticarət daşınmalarında rolunun genişlənməsinə zəmin yarada bilər. Onun sözlərinə görə, ölkəsi dəmir yolu, dəniz nəqliyyatının və yüklərin daşınma vasitələrinin şaxələndirilməsi, «Şimal-Cənub nəqliyyat dəhlizi»nin inkişafı və digər layihələrin həyata keçirilməsi sahəsində Azərbaycanla sıx əməkdaşlıq etmək niyyətindədir.

İqtisadiyyat Nazirliyinin şöbə müdiri Sahil Babayev bildirib ki, xüsusi iqtisadi zonanın yaradılmasında bütün rezidentlər, yəni ölkəmizdə fəaliyyət göstərən sahibkarlar və qeydiyyata alınmış transmilli şirkətlərin nümayəndələri, xarici ölkələrin iş adamları təmsil oluna biləcəklər. Bu sırada iranlı iş adamlarının olması Azərbaycan üçün mühüm əhəmiyyətə malikdir. Çünki qonşu ölkə ilə son zamanlar nəqliyyat-kommunikasiya, logistika sahəsində bir sıra layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Xüsusi iqtisadi zonalarla bağlı layihə isə ikitərəfli əməkdaşlığı daha da möhkəmləndirə bilər.



*İqtisadi zonaların təşkilinə xarici sahibkarları təşviq etmək üçün onların fəaliyyəti ilə bağlı mühüm güzəştlər tətbiq edilməsi də nəzərdə tutulur*

Nazirlik rəsmisinin sözlərinə görə, xüsusi iqtisadi zonanın yaradılmasının məqsədi xüsusi hüquqi rejimin və müasir texnologiyaların tətbiqi əsasında rəqabət qabiliyyətli yeni istehsal və xidmət sahələrinin təşkilidir. Azərbaycan hökumətinin məqsədi bu cür iqtisadi vasitələrlə ölkəmizdə sahibkarlığın və iqtisadiyyatın inkişafını sürətləndirməkdir. Respublikamızda belə iqtisadi layihələrin həyata keçirilməsi üçün əlverişli mühit mövcuddur. İqtisadi zonaların təşkilinə xarici sahibkarları təşviq etmək üçün onların fəaliyyəti ilə bağlı mühüm güzəştlər tətbiq edilməsi də nəzərdə tutulur. Həmin zonalarda istər istehsal təyinatlı, istərsə də investisiya təyinatlı avadanlıqların, malların ölkəyə gətirilməsinə gömrük rüsumları tətbiq olunmayacaq və ya güzəştli şərtlər əsasında rüsum tutulacaq. Xüsusi iqtisadi zonada istehsal və ya emal olunan məhsullara, təmir-bərpa-tamamlama işlərinə, nümunələrin sərgisi və digər bu kimi məqsədlərlə respublika ərazisinə müvəqqəti idxal olunan mallara gömrük və vergi güzəştləri tətbiq ediləcək.

**E.CƏFƏRLİ**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Məcburi auditdən yayınma ilə bağlı cərimənin tətbiqi qaydaları

Məcburi auditdən yayınmağa görə cərimə barədə müddəaların qanunvericilikdə nəzərdə tutulmasına baxmayaraq, cərimənin tətbiqi məqsədilə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər və ya bu inzibati xəta haqqında işlərə baxan səlahiyyətli orqanların müəyyənləşdirilməsi indiyə qədər bəlli deyildi. Lakin yeni İnzibati Xətalar Məcəlləsinin qüvvəyə minməsi ilə bu məsələ öz həllini tapdı.

29 dekabr 2015-ci il tarixli № 96-VQ saylı «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında» Qanuna əsasən, yeni İnzibati Xətalar Məcəlləsi qüvvəyə minmişdir. Qeyd edək ki, bu Qanunla 2000-ci ildən qüvvədə olan «Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikasının Qanunu 2016-cı il martın 1-dən ləğv edilmiş və bu tarixdən də yeni İnzibati Xətalar Məcəlləsi qüvvəyə minmişdir.

Yeni İnzibati Xətalar Məcəlləsinin 464-cü (Məcburi auditdən yayınma) maddəsinə görə, «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə - vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək, hüquqi şəxslər isə min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

Məcəllənin 43.1-ci maddəsindən aydın olur ki, rayon (şəhər) məhkəmələri bu Məcəllənin o cümlədən 464-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxırlar. Məcəllənin 43.2-ci maddəsinə əsasən də göstərmək olar ki, rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin siyahısı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən edilir. Yeni Qanunun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılmışdır ki, üç ay müddətində həmin Məcəllənin 43.2-ci maddəsinə uyğun olaraq rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin. Həmin siyahı hazır olduqdan sonra məcburi auditdən yayınmağa görə cərimənin tətbiqi məqsədilə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər bəlli olacaqdır.

Qeyd edək ki, ayrı-ayrı qanunlarla banklar, büdcədənkənar fondlar, ictimai qurumlar, birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar tətbiq edən hüquqi şəxslər, təbii inhisar fəaliyyəti subyektləri, bank olmayan kredit təşkilatları, sığorta (təkrar sığorta) təşkilatları, maliyyə-sənaye qrupları, fondlar, səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətlər, bələdiyyələr və bələdiyyə müəssisələri məcburi auditin obyekti olan təsərrüfat subyektləridir. Azərbaycan Respublikası Prezidentinin fərmanından irəli gələn tapşırıqların vaxtında yerinə yetirildiyini nəzərə alsaq (müvafiq siyahılar hazır olduqdan sonra), aydın olur ki, bu ilin iyun ayından audit həyata keçirməyən təsərrüfat subyektlərinin, əsasən də xeyli sayda səhmdar cəmiyyətləri və məhdud məsuliyyətli cəmiyyətlərin inzibati məsuliyyətə cəlb olunması reallaşa bilər.

Yeni Məcəllədə mühasibat uçotu üzrə qanunvericiliyin pozulması ilə bağlı müddəa da nəzərdə tutulmuşdur. Məcəllənin 462-ci maddəsinə görə, mühasibat uçotu subyekti tərəfindən maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının və sığorta nəzarəti orqanına təqdim edilməli digər hesabat və məlumatların qanunvericiliyə müvafiq qaydada hazırlanması, təqdim olunması, dərc edilməsi, o cümlədən hesabatlarda və qanunvericiliyə əsasən tələb olunan digər məlumat formalarında informasiya və göstəricilərin tam və düzgün əks etdirilməməsinə, həmçinin uçot sənədlərinin saxlanılması ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydaların pozulmasına görə - vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək, hüquqi şəxslər isə min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir. Fərmanda göstərilir ki, (5.56) həmin Məcəllənin 462-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə bank olmayan kredit təşkilatlarına münasibətdə Azərbaycan Respublikasının Mərkəzi Bankı, digər mühasibat uçotu subyektlərinə (kredit təşkilatları istisna olmaqla), həmçinin sığorta, təkrarsığorta və sığorta vasitəçiliyinə münasibətdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır.

# Aztəminatlı ailələr üçün daha bir humanist addım

**«Sosial mənzillərin tikintisi proqramı yaxın zamanlarda ictimaiyyətə təqdim ediləcək. Bu, yeni təşəbbüsdür. Bəzi ölkələrdə bu praktika var. Biz müsbət praktikanı öyrənirik, öyrənmişik. Buna böyük ehtiyac və tələbat var. Sosial mənzillərin tikintisi prosesi yaxın zamanlarda başlanacaq». Bu barədə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev bildirib.**

Dövlət başçısının sözlərinə görə, bu tipli mənzillərin tikintisi həm Bakı şəhərində, həm də bütün digər rayon və şəhərlərdə geniş şəkildə aparılacaq. Sosial mənzillərin tikintisi əlavə iş yerlərinin yaradılması, mənzilə ehtiyacı olan əhali qrupunun belə ehtiyaclarının ödənilməsi ilə yanaşı, həmin mənzillərin əhaliyə təqdim edilməsi nəticəsində yeni zəruri istehlak ehtiyaclarının yaranacağı nəzərə alınmaqla, paralel şəkildə iqtisadiyyatın 20-dək digər sahələrinin də inkişafına səbəb olacaq.

Bu istiqamətdə işlərin sürətlənməsi məqsədilə dövlət başçısı bu günlərdə Prezident yanında Mənzil İnşaat Dövlət Agentliyinin yaradılması barədə fərman da imzalayıb və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verib.

***Sosial mənzillərdən yüzlərlə insan bəhrələnə biləcək***

...Həmsöhbətim Vüsalə Cəfərova neçə illərdir dövlət ipotekası vasitəsilə ev almaq arzusundadır, lakin maddi vəziyyəti bu niyyətini reallaşdırmağa imkan vermirdi: «Sosial evlərin tikilib aztəminatlı ailələrə veriləcəyi xəbərini eşidəndə çox sevindim. Altı ildir ailə qurmuşuq, üç uşaqla kiçik və şəraitsiz evdə yaşayırıq. Uşaqlar böyüyəndən sonra həyatımızın daha da çətinləşəcəyindən çox narahatlıq keçirirdik. Aylıq gəlirimizin kifayət etməməsi səbəbindən, ipoteka kreditindən bəhrələnmək imkanımız yox idi. Artıq ümidim sosial evlərədir. Düşünürəm ki, bu evlərin tikilib istifadəyə verilməsi mənim kimi ev arzusunda olan yüzlərlə insanın sevincinə səbəb olacaq».

***Xərclərin dövlət tərəfindən qarşılanması evlərin maya dəyərini xeyli aşağı salacaq***

İndi hamını ən çox maraqlandıran suallardan biri sosial evlərin əhaliyə necə satılacağıdır. Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli mətbuata açıqlamasında bildirib ki, bu evlərin satılmasında girov mexanizmi yoxdur və ilkin ödəniş də tələb olunmayacaq. İnsanlar kiçik ölçülü mənzillərə münasib məbləğdə kirayə haqqı ödəməklə 20-25 ildən sonra həmin evə sahib ola biləcəklər: «Azərbaycanda əhalinin maddi cəhətdən zəif təbəqəsi üçün tikilməsi nəzərdə tutulan sosial evlərin maya dəyəri adi mənzillərlə müqayisədə xeyli az olacaq. Bu kateqoriyadan olan evlərin tikintisi bürokratik əngəllərdən və korrupsiya elementlərindən kənar olacaq və bu iki amilin olmaması həmin evlərin ucuz başa gəlməsinə imkan verəcək».

İqtisadçı-ekspert Samir Əliyevin fikrincə, Prezident yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması ölkədə sosial evlərin tikintisini idarə edəcək institutun yaradılması kimi qiymətləndirilməlidir: «2009-cu ildə qəbul edilmiş Mənzil Məcəlləsində dövlətin və bələdiyyələrin belə hüquqları nəzərdə tutulsa da, təcrübədə bu hüquqlar icrasız qalırdı. Çünki sosial evlərin tikintisi mexanizmi mövcud deyildi. Yeni Agentlik bu mexanizmi həyata keçirəcək, dövlət vəsaiti hesabına sosial evlərin tikintisi şərtlərini müəyyənləşdirəcək. Agentliyin nəzdində yaradılan «MİDA» Məhdud Məsuliyyətli Cəmiyyəti vasitəsilə çoxmənzilli binaların tikintisi maliyyələşdiriləcək, yaşayış və ictimai-işgüzar zonalara aid edilən, hüquqi və fiziki şəxslərin istifadəsində və ya icarəsində olmayan dövlət mülkiyyətindəki torpaq sahələri həmin MMC-nin sərəncamına veriləcək. Bu torpaq sahələrində inşa ediləcək tikinti obyektlərinin tikinti ərazisinədək mühəndis-kommunikasiya təminatı sistemi və xətləri dövlət büdcəsi hesabına çəkiləcək. Məlumdur ki, özəl sektorda mənzil tikintisinin maya dəyərinin böyüməsində torpaqların alınması və mühəndis-kommunikasiya xətlərinin çəkilməsi xərcləri əsas rol oynayır. Tikiləcək sosial binaların xərclərinin dövlət tərəfindən qarşılanması, təbii ki, maya dəyərini əhəmiyyətli dərəcədə azaldacaq və evlərin satış qiymətini xeyli aşağı salacaq».

Ekspert deyir ki, sosial evlərin tikintisi Azərbaycanda əhalinin aztəminatlı təbəqəsinin evlə təmin olunması sahəsindəki ikinci mexanizmdir. Dövlət ipoteka proqramının 10 illik fəaliyyəti dövründə 18 minə yaxın vətəndaş evlə təmin olunub, kreditləşmənin həcmi 730 milyon manatdan çox təşkil edib: «Yəni bir ildə ipoteka krediti vasitəsilə ev alanların sayı 2 mindən çox deyil. Ancaq respublikamızda əhalinin mənzilə tələbatı yüksək olduğundan, inkişaf etmiş ölkələrdə tətbiq edilən sosial ev proqramlarının Azərbaycanda da icrası əhalinin ev təminatını xeyli yaxşılaşdıra bilər».

***Sosial evlər dünya təcrübəsində...***

Sosial evlərin dünya təcrübəsi barədə danışan S.Əliyevin sözlərinə görə, Fransa bu proqrama imza atan ilk ölkə hesab edilir. İkinci Dünya müharibəsindən sonra bahalı olmayan, kiçik sahəyə malik panel evlər məhz burada tikilməyə başlanılıb: «Fransa qanunvericiliyinə görə, tikilən evlərin 20%-i «sosial ev» kateqoriyalı olmalıdır və bazar qiymətlərindən xeyli aşağı satılmalıdır. Orta statistik sosial mənzil 3-4 nəfərin yaşaya biləcəyi 80 kvadratmetr sahəyə malikdir. Böyük Britaniyada aztəminatlı ailələr üçün «Əlçatan ev» adlı proqram mövcuddur. Sosial sferanın işçiləri - polis əməkdaşları, xilasedicilər, həkimlər, müəllimlər, pensiyaçılar, əlillər belə evlərdən yararlana bilərlər. Bu proqram işə düşəndən 10 il müddətində ölkədə 1,6 milyon vətəndaş evlə təmin edilib. Almaniyada sosial evlər aztəminatlı ailələrə verilir və dövlət banklarının kredit şəklində verdiyi ictimai vəsaitlər hesabına tikilir. Yalnız bu vəsait geri qaytarıldıqdan sonra ev sahibi mənzilini kirayə verə bilər. Sosial evlərin kirayə haqları digərləri ilə müqayisədə 15-20% ucuz olur. İsveçdə «Milyonuncu ev» proqramı çərçivəsində 10 il ərzində 1 milyon yeni ev tikilib. Niderlandda Mənzil Kirayəçilərinin Assosiasiyası il ərzində 20 min sosial ev tikir və onları kirayəyə verir. Estoniyada sosial mənzil tikintisinə «Estonian Credit and Export Guarantee Fund» vasitəsilə özəl tikinti şirkətlərinə vəsait yönəldilir. Mənzil tikintisinin maliyyələşdirilməsinə bələdiyyələr və mərkəzi hökumət birgə öhdəlik daşıyır».

**AYTƏN**






## vergi təqvimi

| APREL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | **15** | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 aprel - «(1) və (2)»
20 aprel - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «9», «(9-1)», «10.1», «10.2», «10.3» və «11»

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələrini dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.
Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.
İkinci metod: Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.
Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.
Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.
Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.
Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.
**(«1-2») - Gəlir vergisi** (İdman mərc oyunları üzrə): İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.
**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.
**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.
**(«9-1») - Sadələşdirilmiş vergi** (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə): Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.
Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.
**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.
**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.
«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Çində internet idxalı üzrə vergilər artırılıb



Aprelin 7-dən qüvvəyə minmiş yeni qanuna əsasən, ölkəyə internet vasitəsilə gətirilən mallar üçün vergi artırılmışdır. Qanunda qeyd olunmuşdur ki, internet üzərindən alğı-satqı vasitəsilə ölkəyə idxal edilmiş və «barat» kimi təsnif olunmuş satış məhsulları 1000 yuan (155 dollar) məbləğində malın 10 faizini təşkil edən «poçt şöbəsində fərdi vergi» dərəcəsi üzrə vergiyə cəlb olunur.

Bu qanun Çinin yerli ticarətçilərinin satdıqları idxal malları üçün bərabər şərait yaratmaq məqsədi daşıyır. Sərhəd tanımayan elektron ticarətin sürətli artımı böyük sayda internet mağazalarını qablaşdırılmış malları əlavə vergi ödəmədən yayındırmaq üçün bölmək kimi köhnə vergi qanunlarından istifadə etməyə vadar edirdi.

Aprelin 8-dən transsərhəd onlayn alğı-satqı üzrə bir transaksiya üçün maksimum məbləğ 2000 yuan (310 dollar), bir ildə bir adam üçünsə 20.000 yuan (3100 dollar) müəyyənləşdirilib. Qiyməti bu limiti keçən mallar adi idxal ilə eyni götürülür və onlara dəyişkən tariflər, əlavə dəyər vergisi, eləcə də dəbdəbə malları və ya spirt, benzin, zərgərlik məmulatları və avtomobillər üçün nəzərdə tutulan istehlak vergisi tətbiq oluna bilər. Qeyd edək ki, yeni qaydaların tətbiq edilməsi ilə internet idxalı üçün tariflər sıfır səviyyədə saxlanılacaq, ƏDV və istehlak vergisi isə normal dərəcələrin 70%-i qədər tutulacaq.

Bundan əlavə, Çinin Maliyyə Nazirliyi birinci dərəcəli zəruri məhsullar hesab edilən ərzaq malları, geyim, ayaqqabı, eləcə də bir sıra kosmetika vasitələri daxil olmaqla 1000-dən artıq məhsulun siyahısını açıqlamışdır. Nazirlik tərəfindən bəyan edilmişdir ki, bu siyahı baratlara aid vergi tutulmasının qarşısını almaq məqsədilə indiyədək mövcud olan «şəxsi istehlak» elementini davam etdirmək üsuludur və elektron ticarət inkişaf etdikcə, istehlakçıların tələbləri dəyişdikcə təkmilləşdiriləcək.

# Yaponiyaya satışdan vergini artırmaq tövsiyə edilib

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Yaponiyaya həsr olunmuş 2016-cı il üzrə hesabatında dövlət borcunun aktuallığı vurğulanmış və istehlak vergisinin dərəcəsini artırmaq tövsiyə edilmişdir. Hesabatda bildirilir ki, Yaponiya hökuməti dövlət borcunun ümumi daxili məhsula nisbətini azaltmaq üçün daha konkret strategiya tətbiq etməklə öz maliyyə vəziyyətinə etimadı gücləndirməlidir. Təşkilatın baş katibi Anxel Qurria demişdir ki, 2015-ci ildə Yaponiya hökumətinin borcu ÜDM-in təxminən 230 faizini təşkil etmişdir ki, bu da İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının mövcud olduğu tarix ərzində üzv ölkələrin qarşılaşdığı ən yüksək göstəricidir.

Qurria bildirmişdir ki, «Yaponiya daha müfəssəl və konkret strategiya tətbiq etməklə maliyyə vəziyyətinə etimadı qoruyub saxlamalıdır. Bu strategiya istehlak vergisinin tədrici artımını əhatə etməli, ölkədə birbaşa vergi bazası genişləndirilməli və ekoloji vergilər artırılmalıdır».

Gözlənildiyinə görə, 2017-ci ilin aprelinə qədər Yaponiyada istehlak vergisinin dərəcəsi 10 faizədək artırılacaq.

# Norveç vergi sistemi şəffaflıqda nümunədir

Bu ölkədə heç kəs öz gəlirləri barədə məlumatları gizlədə bilmir, hər bir vətəndaşın başqa insanların vergi bəyannamələrindəki göstəricilərlə tanış olmaq hüququ var. Fəhlələr öz həmkarlarının məvacibi haqqında məlumat ala bilir, qonşu qonşunun vergi bəyannaməsini görür. Buna qanun tam hüquq verir və hər kəs məlumatları internet vasitəsilə əldə edə bilir.

Norveç vətəndaşlarının hər il təqdim etdikləri vergi bəyannamələri oktyabr ayında xüsusi şəbəkədə yerləşdirilir, bundan sonra yerli qəzetlər ən varlı vergi ödəyicilərinin reytinqlərini tərtib edir, sosial və siyasi təbəqələr üzrə müxtəlif təsnifatlar aparmağa başlayırlar. Hər bir vergi ödəyicisinə isə imkan yaradılır ki, onun bəyannaməsindəki göstəricilərlə bağlı kimin maraqlandığını, məlumat aldığını öyrənsin: bu barədə vergi ödəyicisinin elektron ünvanına bildiriş göndərilir.

Vergi ödəyicilərinə aid məlumatların hamısı ictimaiyyətə açıqlanmır, yalnız gəlirlərin ümumi məbləği və ödənilən vergilərin məbləği ictimailəşdirilir. Norveç vergi administrasiyasının nümayəndəsi Mariken Holterin sözlərinə görə, ölkə əhalisinin çox cüzi hissəsi vergi şəffaflığının əleyhinədir: «Çoxdan fəaiyyət göstərən bu sistemi ölkə əhalisinin mütləq əksəriyyəti müdafiə edir».

Onu da qeyd etmək lazımdır ki, vergi qanununun bu standartlarının tətbiq olunduğu yeganə ölkə Norveç deyil, buna oxşar vergi siyasəti digər Skandinaviya ölkələrində də qəbul edilmişdir.

# ABŞ-ın vergi sistemi haqqında maraqlı faktlar



Fiskal və monetar siyasət üzrə Hatçins Mərkəzinin direktoru, «Wall Street Journal»ın əməkdaşı Deyvid Vessel ABŞ-ın NPR radiosuna müsahibəsində ölkənin vergi sistemi ilə bağlı bir sıra maraqlı faktları açıqlamışdır.

«Hazırda nə qədər insan öz vergi bəyannaməsini adi poçtla göndərir?» sualına jurnalist belə cavab vermişdir: «Qəzetlər hələ də ABŞ-ın kiçik şəhərlərində çoxlu sayda poçt şöbələrinin vətəndaşların bəyannamələri vaxtında göndərə bilmələri üçün gecə yarıyadək açıq olduğu barədə məlumatları yada salırlar. Bu, artıq keçmişdə qalmış tarixdir, keçən il 150 milyonluq əhalinin 88%-i bəyannamələri vergi orqanlarına elektron formada çatdırmışdır».

Amerikalılar kağız sənədləri doldurmağa nə qədər vaxt sərf edirlər?

Bu cür hesabları aparmaq Federal Vergi Xidmətinin öhdəsindədir. Fərdi sahibkarların 70%-ə yaxını vergiləri ödəməyə 8 saat, sənəd dövriyyəsinə 3 saat, zəruri blankların doldurulmasına 3 saat, digər işlərə isə 2 saat vaxt itirir. Vergi ödəyicilərinin yarıdan çoxu öz vergi öhdəlikləri ilə bağlı işləri üçüncü tərəfə həvalə edir. Sahibkarların üçdə biri isə proqram təminatından istifadə edir.

Hər ailə orta hesabla nə qədər vergi ödəyir?

İllik gəliri 75 min dollar olan dörd nəfərlik ailə öz ümumi gəlirinin 6 faizi qədər, yaxud 4,5 min dollar vergi ödəyir.

## Xəbər lenti

**Latviya** və **Honkonq** hökumətləri qarşılıqlı şəkildə yeni investisiyaların cəlb edilməsi məqsədilə ikiqat vergitutmanın qarşısını almağa dair saziş imzalamışlar.

**Böyük Britaniya**nın ada əraziləri - Bermud, Virciniya və Kayman adaları ayrı-ayrılıqda Britaniya hökuməti ilə Londonda daha ətraflı vergi informasiyasının mübadiləsinə dair saziş imzalamağa hazır olduqlarını bəyan etmişlər.

**ABŞ** Prezidenti Barak Obama ölkə vətəndaşlarına ənənəvi müraciətində bəyan etmişdir ki, hökumətin vergidən yayınmaya qarşı gördüyü yeni tədbirlər ölkə iqtisadiyyatının inkişafına təkan verəcək. Qeyd edilmişdir ki, bu addımlar biznesdə hamının eyni qaydalarla «təmiz oynamasına» şərait yaradacaq.

**Yeni Zelandiya** hökuməti vergi eksperti Con Şyundan xahiş etmişdir ki, bu ölkədə qeydiyyata alınmış xarici trastlara aid vergi informasiyalarının açılması qaydalarının müstəqil icmalını hazırlasın. Maliyyə naziri Bill İnlişin sözlərinə görə, yeni şərait xarici trastlar barədə məlumatların açıqlanması qaydalarına yenidən baxılmasını tələb edir.

**Avstraliya**da tərkibində şəkər olan içkilərə vergi tətbiq etmək planlaşdırılır. Araşdırmaya görə, bu məhsullardan 20 faizlik dərəcə ilə vergi tutulması bir il ərzində büdcəyə 308 milyon ABŞ dolları məbləğində vəsait cəlb edilməsinə və səhiyyə xərclərinin 20 milyon dollar azalmasına şərait yaradacaq.

**ABŞ**-ın Hesablama Palatası 2012-ci ilin göstəricilərini təhlil edərək bu nəticəyə gəlmişdir ki, ölkədə fəaliyyət göstərən hər beş korporasiyadan biri vergi ödəməyi «unudur». Aktivləri 10 milyon dollardan artıq olan iri şirkətlərin təxminən 20 faizinin vergi bəyannaməsini «ağ» təqdim etdiyi məlum olmuşdur.

**Slovakiya**nın yeni formalaşdırılmış hökuməti bu yaxınlarda təsdiqlənmiş iqtisadi proqrama uyğun olaraq, korporativ verginin dərəcəsini aşağı salmağa razılıq verib.

**Böyük Britaniya**nın Vergi və Gömrük İdarəsi tabeliyindəki işçilərin çirkli pulların yuyulmasında iştirak edən müəssisə rəhbərlərinin məsuliyyətə cəlb olunması barədə təklif irəli sürüb. Təklif vergidən yayınmaya qarşı mübarizə ilə bağlı qanun layihəsi kimi təqdim olunub.



krossvord

**Yuxarıdan aşağı:** 1.Səudiyyə Ərəbistanında şəhər. Məhəmməd peyğəmbərin qəbri bu şəhərdədir; 2.Yaşına görə boyu balaca olan insanlara deyilir; 3.Mahir qaboy ustası, «Şöhrət» ordenli Azərbaycanın xalq artistinin adı; 4.Dəqiq elmlərdə hansısa halın faktlarının təsviri; 5.Erkən İntibahın ilk nümayəndəsi, Cotto ənənələrini qəbul etmiş, xətti perspektiv prinsiplərindən istifadə edən florensiyalı boyakar (rəssam); 6.Sovet və Rusiya teatr və kino aktyoru, teatr rejissoru, pedaqoq, SSRİ xalq artistinin soyadı. «Baharın on yeddi anı», «Qorxma, mən səninləyəm» filmlərində çəkilib; 7.Kart oyununda termin; 13.Rusiyada çay; 15.Dünya dinlərindən biri; 16.Ovqatın yüksək səviyyəsi, cuşə gəlmək; 17.Tanınmış fransız filoloq, şair, tərcüməçi; 18.Quranda 55-ci surə; 20.Skandinav mifologiyasında tanrılardan biri; 21.Məşhur Azərbaycan yazıçısı, «Xəyyam» pyesinin, «Ana» dram əsərinin müəllifinin adı.

**Soldan sağa:** 1.Azərbaycan nağıllarında uşaqların çox sevdiyi cəsur, qəhrəman, xeyrxah personaj; 8.İki seçim (adətən, arzu olunmayan) arasında qalmaq; 9.Fosfororqanik zəhərləyici maddə. Bu, iysiz və rəngsiz qaz kimyəvi silahlar qrupuna daxildir; 10.Asiyada dövlət; 11.Astara rayonunda qəsəbə; 12.Qorxu, dəhşət (rusca); 14.Müəyyən qrup və şəxslərin, korporativ dairələrin, eləcə də dövlətlərin maraqlarını təmin edən təşkilatlanmış qurum; 19.Avstraliyanın gerbində təsvir olunmuş heyvanlardan biri; 21.Səudiyyə Ərəbistanının ikinci böyük şəhəri və maliyyə paytaxtı; 22.Görkəmli Amerika yazıçısı, jurnalisti və ictimai xadimi. «Tom Soyerin macəraları», «Şahzadə və dilənçi» və s. əsərlərin müəllifi; 23.Damar və arteriyaların deformasiyası nəticəsində əmələ gələn xəstəlik; 24.Qərbi Azərbaycanın Göyçə mahalında kənd; 25.Parlament tərəfindən insan hüquq və azadlıqlarının müdafiəçisi kimi səlahiyyət verilən, dövlət funksiyalarının daşıyıcısı olan vəzifəli şəxslərin üzərində birbaşa parlament nəzarətini həyata keçirən, etibarlı şəxs;



*Azərbaycan nağılları personajlarından biri*

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Maputu; 2.Horavar; 3.Altun; 4.Defekt; 5.Reaktor; 6.Viola; 7.Qranit; 13.Saks; 15.Kadastr; 16.Zvezda; 17.Ananas; 18.Omonim; 20.Tayqa; 21.Kredo. **Soldan sağa:** 1.Mehmandarov *(Səməd bəy)*; 8.Paratif; 9.Ayova; 10.Tavan; 11.Kattani; 12.Krass; 14.Triko; 19.Vatikan; 21.Kadam; 22.Ziya *(Bünyadov)*; 23.Andersen *(Hans Xristian)*; 24.APA ; 25.Kosmodrom.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

idman

# Veloparkda açıq Bakı kriteriumu

Azərbaycan Velosiped İdmanı Federasiyasının 2016-cı il üçün təqvim planına uyğun olaraq, Veloparkda Açıq Bakı Kriterium yarışlarının 2-ci mərhələsi keçirilib. Yarışda federasiyanın nəzdində fəaliyyət göstərən klub və cəmiyyətlərin 100-ə yaxın idmançısı iştirak edib.

Federasiyadan verilən xəbərə görə, qızların mübarizəsində 8 saylı Olimpiya Ehtiyatları Məktəbinin təmsilçisi Validə Cabbarova hamıdan güclü olub. Onun komanda yoldaşı Maksim Nasperstkov isə gənc oğlanların mübarizəsində bütün rəqiblərini qabaqlayıb.

U-15, U-17 və U-23/Elit kateqoriyasında fəxri kürsünün ən yüksək pilləsinə Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Velosiped Məktəbinin üzvləri Nikita Sıtov, İvan Orlov və Orxan Məmmədov qalxıblar.

Açıq Bakı Kriterium yarışlarının sonuncu, 3-cü mərhələsi aprelin 23-də keçiriləcək.

# Boksçularımızdan beş medal və beş lisenziya

Azərbaycan boksçuları Türkiyənin Samsun şəhərində keçirilən Avropa təsnifat turnirini beş medal və beş lisenziya ilə başa vurublar. Yarışın sonuncu günündə dörd boksçumuz rinqə çıxıb.

Qadınların mübarizəsində Yana Alekseyevna (60 kq) italiyalı İrma Testa ilə finalda üz-üzə gəlib. İdmançımız görüşü qələbə ilə başa vuraraq qızıl medalı aktivinə yazdırıb. Kişilərin yarışında Abdulqadir Abdullayev (91 kq) üçüncü yer uğrunda görüşdə Ukraynanı təmsil edən ermənistanlı Gevorq Manukyanla üz-üzə gəlib. Qarşılaşmada 2:1 hesabı ilə qalib gələn A.Abdullayev bürünc medalla yanaşı, Rio Olimpiadasına lisenziya qazanıb. Turnirin axşam proqramında isə Azərbaycan təmsilçilərindən Lorenso Sotomayor (64 kq) litvalı Evaldas Petrauskasa 3:1 hesabı ilə qalib gəlib. Məhəmmədrəsul Məcidov (+91 kq) isə böyük britaniyalı Jozef Yoysa uduzub - 1:2.




Beləliklə, Azərbaycan boksçuları Avropa təsnifat turnirini 3 qızıl, 1 gümüş, 1 bürünc medal, habelə 2016-cı il Rio-de-Janeyro Yay Olimpiya Oyunlarına 5 lisenziya ilə başa vurublar. Y.Alekseyevna və L.Sotomayordan əlavə, Cavid Çələbiyev (56 kq) də qızıl medala sahib olub. M.Məcidov gümüş, A.Abdullayev isə bürünc medal qazanıb.

# Avropa Kuboku Azərbaycana gəldi




Çexiyanın Teplitse şəhərində yeniyetmələr arasında cüdo üzrə Avropa Kuboku yarışlarına yekun vurulub. Azərbaycan Cüdo Federasiyasının yaydığı məlumata görə, yarışın sonuncu günündə milli komandamız aktivinə daha bir medal yazdırıb. 73 kq çəki dərəcəsində çıxış edən Paşa Əliyev Almaniya, Polşa, Avstriya, Ukrayna və Hollandiyadan olan rəqiblərini məğlub edərək finala yüksəlib. Lakin həlledici qarşılaşmada sloveniyalı Nik Janusa uduzan cüdoçumuz gümüş medalla kifayətlənib.

Xatırladaq ki, yarışın ilk günü cüdoçularımız 9 medal qazanıblar. Fərid Qəzənfərov (50 kq) Əhməd Yusifov (55 kq), İbrahim Əliyev (60 kq) və Şəfəq Həmidova (44 kq) qızıl, Elçin Hüseynov (60 kq) gümüş, Rəşad Baxşəliyev, Rəşad Yelkiyev (hər ikisi 50 kq), Yaqub Cavadov (60 kq) və Vüsalə Kərimova (40 kq) isə turnirin bürünc medallarına sahib olublar.

Bununla da Azərbaycan millisi 10 medal qazanaraq komanda hesabında Avropa Kuboku yarışını birinci pillədə başa vurub. Qeyd edək ki, 29 ölkədən 736 idmançının qatıldığı yarışda millimiz 26 idmançı (20 oğlan, 6 qız) ilə təmsil olunub.

# Lisenziyalarımızın sayı 42-yə çatdı

Azərbaycan idmançıları Rio-de-Janeyroda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziyaların sayını 42-yə çatdırıb. Növbəti uğura qılıncoynadan Səbinə Mikina nail olub. Çexiyanın paytaxtı Praqada keçirilən Avropa təsnifat turniri təmsilçimiz üçün uğurlu alınıb. Ardıcıl üç rəqibini məğlub edən idmançımız yarışı birinci pillədə başa vurub. Bu, S.Mikinanın Olimpiya Oyunlarına lisenziyasını rəsmiləşdirib. London Olimpiadasında da iştirak etmiş idmançı ardıcıl ikinci dəfə dördilliyin ən mötəbər yarışına qatılacaq.

S.Mikinadan əvvəl isə Azərbaycan idmançılarından Olqa İsmayılova, Maksim Averin (hər ikisi velosiped idmanı), Maksim Şemberev (üzgüçülük), Patimat Abakarova (49 kq), Fəridə Əzizova (67 kq), Milad Beigi Harçeqani (80 kq), Radik İsayev (hamısı taekvondo, +80 kq), Oleq Stepko (idman gimnastikası), Marina Durunda (bədii gimnastika), Nazim Babayev (üçtəkanla tullanma), Hayle İbrahimov (5000 m), Anna Skidan (hər üçü atletika, çəkicatma), İnna Osipenko-Radomskaya (kayak, 500 m və 200 m), Valentin Demyanenko (kanoe, 200 m), Aleksandr Aleksandrov - Boris Yotov (akademik avarçəkmə, 200 m), Yuri Meqliç (kanoe-slalom), Yana Alekseyevna (60 kq), Elvin Məmişzadə (52 kq), Cavid Çələbiyev (56 kq), Albert Səlimov (60 kq), Lorenzo Sotomayor (64 kq), Pərviz Bağırov (69 kq), Abdulqadir Abdulayev (91 kq), Məhəmmədrəsul Məcidov (hamısı boks, +91 kq), Elvin Mürsəliyev (75 kq), Sabah Şəriəti (130 kq), Rövşən Bayramov (59 kq), Saman Təhmasibi (hamısı yunan-Roma güləşi, 85 kq), Mariya Stadnik (48 kq), Anjela Doroqan (53 kq), Yuliya Ratkeviç (qadın güləşi, 58 kq), Toğrul Əsgərov (65 kq), Cəbrayıl Həsənov (75 kq), Məhəmmədhacı Xatiyev (86 kq), Xetaq Qazyumov (97 kq) və Camaləddin Məhəmmədov (sərbəst güləş, 125 kq) Olimpiadada iştirak hüququ qazanıb. Bununla yanaşı, kişilərdən ibarət ağırlıqqaldırma idmanı üzrə millimiz də dörd vəsiqəyə sahib olub.

mozaika

texnologiya

## «Ultra HD» gəlir

«Northern Sky Research» (NSR) tədqiqat şirkətinin proqnozuna görə, 2025-ci ilədək peyklər vasitəsilə «Ultra HD» (4K) təsvir ölçüsündə 785-dən çox telekanal yayımlanacaq.

Şirkətin dərc etdiyi «Peyk vasitəsilə yayımlanan «Ultra HD» adlı hesabatda 2026-cı ilədək dünyanın, demək olar, bütün regionlarının «Ultra HD» kanallardan istifadə edə biləcəyi, inkişaf etməkdə olan ölkələrin isə onilliyin sonunadək «UHD» kanallarının qəbuluna başlayacağı bildirilir.




Qeyd olunur ki, «4K» televizorların qiymətlərinin azalması yeni formata marağı və tələbatı artırır, bu televizorların nüfuzetmə səviyyəsi «HD» televizorlarla müqayisədə daha sürətlə yüksəlir.

Hesabatda həmçinin proqnozlaşdırılır ki, «Ultra HD»nin ötürülməsinə görə kanalların buraxılış qabiliyyətinin genişləndirilməsi üçün tələb olunan peyk tutumlarının icarəsinin artması ildə 280 milyon dollar əlavə qazanc gətirəcək.

araşdırma

## Dünya okeanının səviyyəsi 1,5 metr qalxa bilər

BMT-nin «İqlim proqramı»nın ekspertləri gözləyirdilər ki, Dünya okeanında suyun səviyyəsi Antarktidada buzlarının sürətlə əriməsi səbəbindən XXI əsrdə 50 santimetr qalxa bilər. Bu dəyişiklik hələ 2013-cü ildə proqnozlaşdırılırdı. «Əgər iki il bundan əvvəl BMT-nin hesabatında maksimum 2100-cü ilədək Dünya okeanının səviyyəsinin 98 santimetr qalxacağı güman edilirdisə, amerikalıların tədqiqatları artımın 1,5 metrə çatacağını göstərir. Bu, Nyu-York, Şanxay, Amsterdam və digər sahilyanı şəhərlər üçün təhlükə yaradacaq», - iqlimşünas alim, Massaçusets Universitetinin əməkdaşı Robert De Konto belə deyib.

ABŞ alimlərinin araşdırmalarının nəticələri 125 min il əvvəl baş verən qlobal istiləşmə üzrə tədqiqatlara əsaslanır. Antarktida buzların əriməsini sürətləndirən amillərdən biri hidroqırılma effekti ola bilər: ərimiş su buz üstündə olan sahələrə dolur, donaraq genişlənir və onları parçalayır.

Dünya okeanının səviyyəsi 1900-cü ildən indiyədək 20 santimetr qalxıb. Alimlərin proqnozlarına görə, qlobal istiləşmə davam edərsə, 2500-cü ilədək daha 13 metr qalxa bilər.



heyvanlar aləmi

## Qurdla kaftarın dostluğu

Amerikalı zooloqlar İsrailin cənubundakı Negev səhrasında müxtəlif növə aid yırtıcı heyvanların qarşılıqlı faydalı əməkdaşlığına dair nadir hadisənin şahidi olublar. Burada zolaqlı kaftar canavar sürüsü ilə birgə şikar axtarır.

Adətən, zolaqlı kaftarlar tənha həyat tərzi sürür və ova yalnız öz balaları ilə çıxırlar. Qurdlar isə heç vaxt yırtıcı məməlilərlə yaxınlıq etmirlər. 1994-cü ildə Negev səhrasının kanyonları arasında güclü seldən sonra eyni yerdə - nəm qum üzərində hər iki heyvanın izinə rast gəlinib. O zaman heyvanların axtarışı nəticə verməsə də, dörd il sonra zooloqlar Negev səhrasına qayıtdıqda canavar sürüsünə rast gəliblər. Sürünün içində bir kaftar da olub.

Zooloqlar bu qəribə «əməkdaşlığa» izah tapmağa çalışıblar. Böyük ehtimalla, sürətli qaçışa malik qurdlar iri heyvanları asanlıqla öldürüb yeyir, şikarın qalıqları isə kaftara qismət olur. Amma kaftar tullantıların qoxusunu daha tez duyur, onları torpağın altından çıxarır, hətta konserv bankasını açmağı bacarır. Deməli, iki yırtıcının ittifaqının səbəbkarı, əslində, Negev səhrasını zibilləmiş insanlardır.

Son vaxtlar alimlər tez-tez qeyd edirlər ki, iqlim dəyişiklikləri və digər antropogen proseslərin təsiri ilə heyvanların davranışı xeyli dəyişir.





Məsələn, Şpitsbergen adasındakı ağ ayılar delfin ovlamağı və onların ətini qarın altında ehtiyat kimi saxlamağı öyrəniblər. Suitilər isə balıq və xərçəngkimilər əvəzinə, daha çox digər dəniz məməlilərini ovlayırlar.

camiyyət

## Çin öndədir

Dünyadakı sənaye robotlarının ümumi həcminin 1/4-i Çinin payına düşür. Sənaye və informasiya texnologiyaları naziri Xuay Tzinpen 4-cü elektron-informasiya texnologiyaları yarmarkasında bildirib ki, Çin robot istehsalında nəinki güclü texniki və intellektual ehtiyata, həmçinin geniş bazar perspektivinə malikdir.

Robot istehsalı sahəsində inkişaf proqramına əsasən, 2020-ci ilədək ölkədə robotların illik satış həcmi 150 min ədədə çatacaq. Onların ümumi sayı isə keçən illə müqayisədə 400 min ədəd artaraq 800 min ədəd təşkil edəcək. Proqnozlara görə, həmin dövrə qədər Çində robot istehsalı sənayesinin gəlirinin həcmi 100 milyard yuan olacaq.

Proqramda qeyd olunur ki, robot texnikası səhiyyə, informasiya və digər sahələrdə olduğu kimi, məişətdə də geniş istifadə ediləcək.

**Müdriklər deyib ki...**

*«İnsanın ürəyi dəyirman daşıdır, ona üyütməyə bir şey qoymasanız, özünü üyüdəcək».*

*Martin Lüter (1929-1968)*

